

Milli azadlıqdan
şirin nemət yoxdur!

# 1993-cü il 3 oktyabr - Qurtuluşdan modern dünya düzəninə doğru başlanan yolun tarixi




Bax səh. 2


YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

03 oktyabr 2024-cü il, cümə axşamı
№ 181 (6767)
Qiyməti 60 qəpik


# Naxçıvanda qoyulan təməl...




Bax səh. 3

İlham Əliyev
@azpresident

Bu gün #Azərbaycan ordusu #Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. #Qarabağ Azərbaycandır!

Translate Tweet

7:20 PM · Oct 3, 2020 · Twitter for iPhone

# Zəfərə 37 gün qalırdı...

İlham Əliyev
@azpresident

Bu gün #Azərbaycan #Ordusu Tərtər rayon Talış kəndini, Cəbrayıl rayon Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndlərini, Füzuli rayonu Aşağı Əbdürrəhmanlı kəndini azad etmişdir.

#Qarabağ #Azərbaycandır!

Translate Tweet

10:31 PM · Oct 3, 2020 · Twitter for iPhone

Bax səh. 3

# Ermənistan üzr istəməlidir!

Bax səh. 4

## Dünyanın nəzərləri Bakıya yönələcək



Bax səh. 2

## Güclü siyasi zəminə əsaslanan iqtisadi hədəflər

Azərbaycan və Səudiyyə Ərəbistanı arasında dostluq münasibətləri qarşılıqlı hörmət və sıx dostluq əlaqələri üzərində inkişaf etməkdədir. İki ölkə arasında münasibətlər güclü siyasi zəmin əsasında inkişaf etməkdədir və dərin qarşılıqlı inam və etimadın, iradənin olması əlaqələri bütün sahələrdə irəliyə aparmaqdadır. İki ölkənin dövlət başçılarının, hökumət üzvlərinin, iqtisadi qurumları və biznes nümayəndələrinin birgə səfərlərinin intensiv xarakter alması və aparılan faydalı...

Bax səh. 6

## Xalqı səfərbər edən əsas məsələ - Qərbi Azərbaycana ləyaqətli qayıdış




Bax səh. 4

## Milli maraqlarımızın qorunması üçün...

Dövlət iradəsini xalqdan alır. İstənilən bir ölkənin hərtərəfli inkişafı üçün əsas məqamlardan biri həm ictimai, həm də dövlət maraqlarının xalq tərəfindən müdafiə olunmasıdır. Çünki hər bir dövlət xalqın iradəsinə söykənərək onun milli maraqları üçün çalışır və buna uyğun siyasət həyata keçirir.

Azərbaycan bu sahədə uğurlu addımlar atıb. Müxtəlif zamanlarda ictimai maraqların dövlət maraqları ilə üst-üstə düşməsinin şahidi olmuşuq. Xalqımız hər zaman əl-ələ verərək bir yumruq halında birləşib, əzmlə mübarizə aparıb. Bütün bunların sayəsində müxtəlif, bir o qədər də böyük və şanlı qələbələrə imza atmışıq.

Mövzunu "Yeni Azərbaycan"a şərh edən politoloq İlyas Hüseynovun sözlərinə görə, ictimai və dövlət maraqlarının müdafiəsi cəmiyyətin əsas meyarı olmalıdır. Ekspert bunu hər bir vətəndaşın qarşısında duran mühüm vəzifələrdən biri adlandırıb: "Yəni hər bir vətəndaş kimliyindən asılı olmayaraq, dövlətin, ictimaiyyətin maraqlarına xidmət etməyə borcludur. Vətəndaşın ilk məqsədi...

Bax səh. 5

## Alen Simonyana xatırlatma

Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışının təmin olunması onların beynəlxalq hüquq çərçivəsində müəyyənləşmiş fundamental haqlarından biridir. Qərbi azərbaycanlıların tarixi torpaqlarımıza qayıdışının təmin edilməsi üçün bütün imkanlardan, o cümlədən beynəlxalq platformalardan istifadə olunur. Bu istiqamətdə işlər aparılır, Qərbi Azərbaycan İcması, eləcə də vətəndaş cəmiyyətinin təmsilçiləri müvafiq beynəlxalq təşkilatlara müraciətlər edirlər.

Ermənistanda isə məsələ "dərin narahatlıqla" izlənilir. Çünki artıq Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması kontekstində Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışı beynəlxalq platformalarda müzakirə predmetinə çevrilib. Bugünlərdə Ermənistan parlamentinin spikeri Alen Simonyanın mövzu ilə bağlı açıqlaması da bu "narahatlığın" göstəricisidir. Bununla əlaqədar Qərbi Azərbaycan İcması bəyanat verərək Ermənistan parlamentinin spikeri Alen Simonyanın öz yurdlarından qovulmuş Qərbi azərbaycanlıların tarixi torpaqlarına geri...

Bax səh. 5

## Rəqabət və xarici bazarlara çıxış üçün...

Rəqəmsal transformasiya müasir biznesin formalaşmasını şərtləndirən aparıcı amildir. Elektron ticarət, rəqəmsal ödənişlər, süni intellekt, blokçeyn və digər alətlər ənənəvi biznesin rəqəmsal biznesə keçidində mühüm rol oynayır. Rəqəmsal transformasiya kiçik və orta biznesdə (KOB) innovasiyaları sürətləndirmək və bununla da rəqabət qabiliyyətini gücləndirmək üçün əsas vasitə kimi ön plana çıxır. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda kiçik və orta biznesin (KOB) inkişafının yeni və daha səmərəli stimullarla təşviqi, rəqəmsal cəmiyyətə tam inteqrasiya üçün yeni strateji hədəflər müəyyən edilib. Bu məqsədlə yeni hazırlanan kiçik və orta sahibkarlığın rəqəmsallaşması proqramı bu istiqamətdə nəzərdə tutulan prioritetləri özündə əks etdirir.

Proqramın başlıca məqsədi rəqəmsallaşmanı təşviq etməklə kiçik və orta biznesləri dəstəkləmək, onların effektivliyini, rəqabət qabiliyyətini və bazar əhatəsini genişləndirməkdir. KOBİA-nın sədri Orxan Məmmədov Bakıda İnnovasiya...

Bax səh. 6

## Paşinyan "qapı arxasında" qaldı...

Ermənistanın son aylarda xüsusilə qabartdığı "Qərbə inteqrasiya", "ABŞ ilə yaxınlaşma" kimi "xülyaları" daşa dəyməkdədir. 5 aprel razılaşması ilə Ermənistanı özünün "arxa bağçası"na çevirən ABŞ İrəvanı hətta görüntü xatirinə belə olsa da, özünün "tərəfdaşı" kimi təqdim etmədi - BMT Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində ABŞ-da "qonaq" olan Ermənistanın baş naziri Nikol Paşinyan əməlli başlı "diqqətdən kənarda" qalıb. Tədbirdən öncə Ermənistan KİV-i Paşinyanın ABŞ prezidenti Co Baydenlə görüşəcəyi haqda "pozitiv proqnozlar" versə də, onların bu arzusu yerinə yetmədi. Cəmisi bir aydan sonra öz postunu təhvil verəcək və eks-prezidentə çevriləcək Bayden Paşinyanı qəbul etmədi.

Əslində Ermənistan ictimaiyyəti bu görüşü həm də Baydenin Paşinyanı "yeni müttəfiqi" qismində özünün xələfinə təqdimat mərasimi kimi xarakterizə edirdi. Düşünülürdü ki, məhz bu yolla ABŞ özünün Cənubi Qafqaza istiqamətlənən "yeni siyasi planları"nı nümayiş etdirəcək. Amma bu baş vermədi. Səbəbləri isə az deyil...

Bax səh. 7

## Daxili böhran dərinləşir...



Bax səh. 7

## Yelisey sarayı geri çəkildi...



Bax səh. 7

# 1993-cü il 3 oktyabr - Qurtuluşdan modern dünya düzəninə doğru başlanan yolun tarixi





1993-cü ilin 3 oktyabrı Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə bağlı əlamətdar bir günlərdən biridir. Ümumiyyətlə, bu barədə düşünəndə Heydər Əliyevin Xilaskar obrazının təcəssüm tapdığı parlaq şəxsiyyəti üzərində dayanmalı oluruq. Heydər Əliyevin 40 illik siyasi yaradıcılığı bu gün azad, müstəqil, böyümüş, yenidən qurulmuş və ən əsası, Zəfər çalmış Azərbaycanımızın əsasını təşkil edir. Çünki Heydər Əliyev o liderlərdən oldu ki, nəinki xalqın qurtuluş, yenidən varolma qüdrətinə imza atdı, həmçinin millətinin həyatını sivil, modern dünya düzəninə uyğunlaşdırmağa nail oldu. 20 sentyabr 1994-cü il "Əsrin müqaviləsi"ndən uğurla başlayan bu yol sonradan çox böyük strateji əməkdaşlıqların əsasını qoydu. İlk dəfə olaraq dünyanın fövqəl və regional dövlətləri onun siyasəti ilə uyğunlaşmağa məcbur oldular, Azərbaycan dünyanın nəhəng dövlətləri ilə eyni sırada, eyni hüquqda dayandı və buna nail olmaq üçün Heydər Əliyevin dərin zəka və dünyagörüşü kifayət etdi.

Bu gündən geriyə baxanda - hər şeyə müqayisə yolu ilə nəzər yetirəndə 1990-cı illərin xaos və kataklizm dumanında milli müəyyənliyini itirmək təhlükəsi ilə üz-üzə qalan xalqın həyatında Ümummilli Lider Heydər Əliyevin hansı ölçüdə, böyük miqyasda rol oynadığı daha aydın və səhih boyalarla təhlilə gəlir.

1980-ci illərin sonlarından etibarən ölkə əvvəlcə yenidənqurma adı ilə göstərilən bir absurdun tamaşaçısı olmaq məcburiyyətini yaşadı, ardınca bu ümidlərin də fiaskoya uğraması prosesi başladı. Hakimiyyət insanı oyuncağa çevirir, siyasi hərc-mərclik içində çabalayan respublikanın müqəddəratı müəyyən maraqların, mənafelərin güdazına verilirdi. 1990-cı ilin 20 Yanvarında törədilən qırğın, 1991-ci ilin noyabrındakı vertalyot qəzası, 1992-ci ilin fevralında baş verən Xocalı soyqırımı. Milli müstəqilliyini elan etmiş Azərbaycan Respublikası eyni zamanda yalnız Qarabağ probleminin məngənəsində var-gəl etmir, ölkə miqyasında qabaran başqa olayları dəf etməyə çalışırdı: 1993-cü ilə qədər aparılan hakimiyyət çəkişmələri, siyasət oyunları, ölkədə yaranan hərc-mərclik, milli-siyasi qarşıdurmadan törənən Gəncə hadisələri, hadisələrin vətəndaş müharibəsi səviyyəsinə çatması obyektiv mənzərəni təfərrüatı ilə anlamağa kifayət edir.

Keçid dövrünün ovqatı böyük bir imperiyanın çökümündən sonra gerçəkləşən mədəni-mənəvi deqradasiyanın nəticəsi kimi pərvəriş tapırdı. Mədəniyyət və ənənəvi dəyərlər gözdən salınır, neçə onilliyin ədəbiyyatı nihilist yanaşmaların güdazına verilir, profanlaşma artır, elmin surroqatla əvəzlənməsi prosesi başlanırdı. Azərbaycan insanı da öz müstəqilliyini yaradan, postsovet məkanı kimi özgürlüyünü yaşayan xalq olaraq həm keçid dövrünün, həm də dünya səviyyəsində mövcud xaotik mərhələnin yükünü və ağrısını daşımağa məcbur edilmişdi. Yeni liderin gəlişinə, xalqın nicat yerinə çevrilməsinə ehtiyac vardı, zəmanə öz qəhrəmanını gözləməkdə idi. Nəhayət, 1993-cü ildə Ümummilli lider Heydər Əliyevin ikinci dəfə Azərbaycana rəhbərliyə qayıdışından sonra ölkədə siyasi qarşıdurma aradan qalxdı, Azərbaycan-Ermənistan arasında atəşkəs rejimi elan olundu, bütün sahələrdə sabitlik hökm sürməyə başladı. Xalq şairi Məmməd Araz o illərdə yazırdı: "Prezidentin müdrikliyi ondaydı ki, o, özünü itirmədi, gecikmədi; xalqın sərvaxtlığı ondaydı ki, o, qəfildən ayağa qalxdı və çevikliyini saxladı. Yoxsa Azərbaycan dövləti, milli müstəqilliyimiz, gələcəyimiz darmadağın ola bilərdi".

Bəli, milli-mənəvi həyatımızda hökm sürmüş xaos və stixiyadan sonra Dahi işinə ehtiyacın növbəsi gəlmişdi və zamanın sükanını ahəngə xidməti ilə seçilənlərin öhdəsinə verməyin vaxtı idi. Dövrün qarışıqlığı - ölkədə hökm sürən siyasi hərcmərclik, sosial böhran, kükrəyən emosiyalar, xalqın fiaskoya uğrayan ümidləri və ardınca Heydər Əliyevin hakimiyyətə gəlişi. Bu yalnız hakimiyyətə qayıdış deyildi. Bir zaman görülən işlərin, bütün senzura və stereotiplərin üstündən adlanıb meydana qoyulan əməllərin bütövlənməsi, yenidən dövriyyəyə gətirilib tamamlanma şansı idi. İbrətlidir ki, tarix bu şansı digərinə deyil, elə istiqlal yollarında can qoymuş, məsləkini tərcümeyihalına çevirmiş Seçilmişinə - Heydər Əliyevə həvalə etdi.

Heydər Əliyev 1993-cü ilin 3 oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra da sübut etdi ki, ölkəni, xalqı idarəetmə missiyası əmin əllərdədir. Həmin o qarışıqlıq və xaos dövründə Heydər Əliyevin söylədiyi bir ibrətamiz fikir onun bütün fəaliyyət xəttini dəqiq xarakterizə edir: "Elmimizlə, mədəniyyətimizlə, mənəviyyatımızla çox ehtiyatlı, çox diqqətli davranmaq lazımdır. Bu işləri bazar iqtisadiyyatının ixtiyarına vermək olmaz". Heydər Əliyev yalnız milli müstəqilliyi qazandığımız 1990-cı illərdə deyil, eləcə də hakimiyyətdə olduğu sovet epoxası daxilində ədəbiyyatı nəinki iqtisadiyyatın, eləcə də siyasətin, gücün ayağına vermədi.

Heydər Əliyevin siyasətçi kimi gücü bunda idi. Əvvəlki inadla millətin yaddaş kultuna sədaqətinin bərpa edilməsi məsələsinə həssas yanaşmasında. 1990-cı illərdə dahi şairimiz Məhəmməd Füzulinin 500, Mirzə Cəlilin 128, ilk möhtəşəm söz abidəmiz olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin elmi ictimaiyyət tərəfindən beynəlxalq səviyyədə keçirilməsi ədəbi irsə layiqli münasibətin izharına ən yaxşı nümunə olmaqla yanaşı, dövlət başçısının hansı məsələlərdə dəstək aradığını, mənəvi ülfət tapdığını bəlli edirdi. Daha sonra bu missiya klassik sənətkarlarımızın taleyinə münasibətdə davamını tapmağa başladı. Klassiklərimizin yubileylərinin keçirilməsi barədə sərəncamlar imzalayan Heydər Əliyev qeyd edirdi ki, "Respublikamızın bu ağır dövründə böyük yubileylər keçirilməsi, şübhəsiz ki, müəyyən qədər çətinliklərlə üzləşəcək. Ancaq bunlara baxmayaraq, həyatımızın mənəvi sahəsi heç vaxt unudulmamalıdır. Çətinliklər nə qədər çox olsa da mədəniyyətə, mədəni irsimizə, mənəviyyata daim xüsusi diqqət yetirməli və bu sahələrin geri qalmasına yol verməməliyik".

1993-cü illərdə yenidən hakimiyyətə gələn Heydər Əliyevin müasir ədəbiyyat kontekstində yerinə yetirdiyi "yaradıcılıq" missiyasının realizəsi bir tərəfdən klassik ədəbiyyatı yaşatmaqla bağlı idisə, digər tərəfdən çağdaş ədəbi prosesi gəlişdirmək məqsədilə atılan bir sıra addımlarla əlamətdar oldu; yaradıcılıq aləminə yeni istedadlı müəlliflərin gəlməsində rol oynayan, sonradan maddi çatışmazlıqlar ucbatından uzun fasilələrlə işıq üzü görən, hətta bağlanmaq təhlükəsi ilə üz-üzə duran ədəbi orqanların: "Azərbaycan", "Literaturnı Azərbaycan", "Ulduz", "Qobustan" jurnallarının və "Ədəbiyyat qəzeti"nin ölkə prezidentinin xüsusi qərarı ilə müntəzəm surətdə ölkənin dövlət büdcəsindən maliyyələşdirilməsi ədəbi prosesin gəlişməsində əsaslı rol oynadı.

1993-cü ildən, Azərbaycan Respublikasının Prezidenti kimi ali missiyanı icra edəndən az sonra Ümummilli Lider bütün istiqamətlərdə ardıcıl, davamlı uğurlara, irəliləyişlərə imza atdı. Heydər Əliyevin həyata keçirdiyi siyasət qlobal mahiyyətinə görə bənzərsiz tarixi mərhələdə Azərbaycanın gücünə və Azərbaycan ictimai fikrinin təməl daşına çevrildi. XX yüzilliyin sonunda Ərəbistandan Qafqaza qədər dalğalanan siyasi ziddiyyətlərin Azərbaycana yansımaması, Azərbaycanın Şərqdə də, Qafqazda da müstəsna bir dünya dövləti kimi öz sabitliyini və hər mənada müstəqilliyini qoruyub saxlaması, Azərbaycanın Şərqdə unikal, tolerant bir Avropa dövləti kimi təzahür etməsi Heydər Əliyev tərəfindən irəli sürülmüş milli məfkurənin ümummilli mahiyyətinə ən mükəmməl və etibarlı sübutdur.

Ümummilli dəyərləri ideoloji baxımdan ilk dəfə o təsbit etdi. İqtisadi coğrafiyanı böyük quruculuq işləriylə, mənəvi coğrafiyanı isə milli-mənəvi dəyərlərin Azərbaycana qaytarılmasıyla gerçəkləşdirdi. Azərbaycanın qapılarını Dədə Qorqudun, Babəkin, Nizaminin, Nəsiminin, Hüseyn Cavidin, Şəhriyarın üzünə taybatay açmaqla, əslində, Azərbaycanın məfkurəvi necəliyini müəyyənləşdirdi. Bəli, 1993-cü ildə Azərbaycan xalqı Heydər Əliyevi hakimiyyətə təkcə Azərbaycanı hərbi-siyasi böhrandan qurtarmaq üçün deyil, həm də Ümummilli Liderin 25 il əvvəl başladığı azərbaycançılıq əsərinin ən ciddi səhifələrini yaratmaq üçün dəvət etmişdir. Çünki bu mənəvi abidənin - siyasi Azərbaycanın sirri 1969-cu ildən başlayaraq Heydər Əliyevin üslubunda artıq kəşf olunmuşdur.



*Elnarə Akimova*
*Milli Məclisin deputatı, filologiya elmləri doktoru*

# Dünyanın nəzərləri Bakıya yönələcək

İndiyədək bir sıra beynəlxalq forumların, idman yarışlarının keçirilməsində zəngin təcrübə qazanmış Azərbaycan noyabr ayında qlobal əhəmiyyət daşıyan növbəti mühüm tədbirə - COP29 iqlim konfrasına ev sahibliyi edəcək. Ölkəmizin COP29-a ev sahibliyi hüququ ötən ilin dekabrında Dubayda baş tutan COP28 konfransı çərçivəsində təsdiqlənib. Azərbaycanın namizədliyi Şərqi Avropa Bürosundan irəli sürülüb və təxminən 200 dövlət tərəfindən yekdilliklə dəstəklənib. Beynəlxalq birliyin bu etimadını böyük məsuliyyət kimi qəbul edən Azərbaycan ötən dövrdə noyabrda ev sahibliyi edəcəyi tədbirə ciddi hazırlıq həyata keçirib və işlər artıq yekunlaşmaq üzrədir. Oktyabrın 1-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar Təşkilat Komitəsinin yeddinci iclası keçirilib.

## BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar Təşkilat Komitəsinin yeddinci iclası keçirilib

## Dövlətimizin başçısının daim diqqət mərkəzində saxladığı hazırlıq prosesi

Çoxlu sayda qonağın qatılacağı və mühüm iqlim çağırışlarının müzakirələrinin aparılacağı COP29-a hazırlaşmaq üçün Azərbaycanın cəmi bir il vaxtı var idi. Buna görə də müvafiq Tədbirlər Planı əsasında nəzərdə tutulan layihələr intensiv şəkildə və yüksək keyfiyyətlə reallaşdırılır. Təşkilat Komitəsinin yeddinci iclasında Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq sonuncu iclasdan keçən müddət ərzində COP29 üzrə Tədbirlər Planının icrası istiqamətində görülmüş işləri qeyd edib. Prezident İlham Əliyevin COP29-a hazırlıq prosesini daimi olaraq diqqətdə saxladığını qeyd edən Təşkilat Komitəsinin sədri dövlətimizin başçısının sentyabrın 10-da Bakı Olimpiya Stadionunda COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olaraq müvafiq tapşırıq və göstərişlər verdiyini diqqətə çatdırıb.

Samir Nuriyev sentyabrın 22-23-də Nyu-Yorkda keçirilmiş "Gələcəyin Sammiti"ndə, daha sonra isə BMT Baş Assambleyasının 79-cu sessiyasının ümumi müzakirələri çərçivəsində bir sıra dövlət və hökumət başçılarının öz çıxışlarında COP29-a istinad etməsinə toxunaraq, noyabr ayında bütün dünyanın diqqətinin Azərbaycanda olacağını bildirib.

Prezident Administrasiyasının rəhbəri sentyabr ayında COP29 Sədrliyi tərəfindən Bakıda müxtəlif vacib tədbirlərin təşkil olunduğunu bildirərək, İtki və Zərər Fondunun 3-cü iclasını xüsusi qeyd edib. Təşkilat Komitəsinin sədri hazırda davam edən Bakı İqlim Həftəsinin əldə etdiyi nəticələrin davamlı olacağına inamını ifadə edib, qarşıdan gələn tədbirlər arasında oktyabrın 10-11-də keçiriləcək Pre-COP tədbirinin vacibliyini vurğulayıb.

Samir Nuriyev Prezident İlham Əliyevin inkişaf etməkdə olan kiçik ada dövlətlərinin COP29-da iştirakından irəli gələn məsələlərin həlli ilə bağlı verdiyi tapşırığın həm bu ölkələr, həm də inklüzivliyin təmin olunması nöqteyi-nəzərindən beynəlxalq ictimaiyyət tərəfindən müsbət qarşılandığını bildirib.




Təşkilat Komitəsinin sədri dövlət qurumlarının COP29 çərçivəsində beynəlxalq tərəfdaşlarla birlikdə çoxsaylı tədbirlər keçirəcəklərini qeyd edib.

Samir Nuriyev Azərbaycan QHT-lərinin "Gələcəyin Sammiti"nin işində fəal iştirak etdiklərini və bunun nəticəsi olaraq 22 ölkədən 44 QHT nümayəndəsinin Azərbaycanın COP29-a ev sahibliyi edən ölkə kimi inklüzivliklə bağlı addımlarını dəstəkləyən bəyanat verdiyini bildirib.

## Bakı Olimpiya Stadionunda görülən işlər

Müvafiq Tədbirlər Planına uyğun olaraq COP29-a hazırlıqla bağlı işlərin böyük bir qismi müasir idman qurğusu olan Bakı Olimpiya Stadionunda həyata keçirilir. İclasda Samir Nuriyev Bakı Olimpiya Stadionunda görülən işlər, nəqliyyatın təşkili, təhlükəsizlik, COP29 vizasının əldə edilməsi, informasiya təhlükəsizliyi ilə bağlı məsələlər haqqında danışaraq, onların həlli istiqamətində müvafiq tapşırıqlar verib.

Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş Prezidenti Muxtar Babayev Nyu-York İqlim Həftəsi ərzində keçirilmiş görüşlər də daxil olmaqla, COP29-la bağlı ümumi gedişat barədə məlumat verib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov Bakı Olimpiya Stadionunda aparılan işlər və digər təşkilati-logistika məsələləri barədə çıxış edib.

Xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində keçirilmiş görüşlər və digər substantiv məsələlər barədə danışıb.

Maliyyə naziri Samir Şərifov iqlim maliyyəsi, bu kontekstdə Beynəlxalq Valyuta Fondu və Dünya Bankı ilə həyata keçirilən əməkdaşlıq barədə çıxış edib.

Elm və təhsil naziri Emin Əmrullayev COP29 zamanı təhsil müəssisələrinin fəaliyyətinin təşkili barədə məruzə edib.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Əli Nağıyev COP29 zamanı təhlükəsizliyin təmin edilməsi məsələləri barədə danışıb.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova COP29 ilə əlaqədar Mədəniyyət Nazirliyi tərəfindən görülmüş işlər, o cümlədən "İqlim naminə mədəniyyət" təşəbbüsü barədə məlumat verib.

Kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova COP29 ilə əlaqədar Kənd Təsərrüfatı Nazirliyi tərəfindən görülmüş işlər və "Harmoniya" təşəbbüsü barədə danışıb.

İclasın sonunda COP29 Tədbirlər Planının icrası istiqamətində görülən işlərin davam etdirilməsi və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verilib.

*Mübariz FEYİZLİ*

# Zəfərə 37 gün qalırdı...

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.




**Vətən müharibəsinin 7-ci günü**

**03.10.2020**

Gün ərzində Azərbaycan Ordusu müəyyən olunmuş istiqamətlərdə irəliləyərək yeni dayaq məntəqələrini azad etməklə ərazini düşmən qüvvələrdən təmizləyib.

Döyüşlərdə düşmənin xeyli sayda canlı qüvvəsi, hərbi və digər döyüş texnikası məhv edilib.

Sentyabrın 27-dən oktyabrın 2-si saat 20.00-dək düşmənin ümumi itkiləri aşağıdakı kimidir:

- 230-dək tank və digər zirehli texnika;
- 250 ədəd artilleriya, yaylım atəşli raket sistemləri, minaatan;
- 38 ədəd hava hücumundan müdafiə vasitələri;
- 10 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi;
- 7 silah-sursat anbarı;
- 130-dan artıq avtomobil texnikası;
- 1 ədəd "S-300" zenit-raket kompleksi.

***

Fransa Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Fransa Prezidenti Ermənistan-Azərbaycan təmas xəttində döyüşlərin davam etməsindən narahatlıq hissi ifadə edərək atəşkəsin bərpa edilməsi və tezliklə danışıqların aparılmasına çağırıb.

Prezident İlham Əliyev bildirib ki, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın yaşayış məntəqələrinin ağır artilleriya atəşinə tutulması nəticəsində 19 mülki şəxsimiz həlak olub, 60-dan çox adam yaralanıb, yüzlərlə ev dağıdılıb. Azərbaycan Ordusu uğurlu əks-hücum əməliyyatları həyata keçirərək işğal olunmuş ərazilərimizin bir hissəsini işğaldan azad edib.




Dövlətimizin başçısı onu da qeyd edib ki, Ermənistan danışıqlar prosesinin pozulması istiqamətində addımlar ataraq bu prosesə böyük zərbə vurub. Prezident İlham Əliyev vurğulayıb ki, danışıqların pozulması, eləcə də silahlı qarşıdurmanın yaranmasına görə məsuliyyət tam şəkildə Ermənistan rəhbərliyinin üzərinə düşür.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva bir aylıq əməkhaqqı məbləğində vəsaiti Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna ianə ediblər.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fondu Prezident Heydər Əliyevin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin inkişafı və maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə formalaşıb.

***

Gecə ərzində Ermənistan silahlı qüvvələri tərəfindən Tərtər şəhəri, rayonun Səhləabad, Qəzyan, Qapanlı, Qaynaq, Əskipara, Hüsənli, Ağdam rayonunun Ayaq Qərvənd, İmamqulubəyli, Qaradağlı, Təzəkənd, Ağcabədi rayonunun Muğanlı, Qiyaməddinli, Rəncbərlər və Goranboy rayonunun Tapqaraqoyunlu kəndi intensiv artilleriya atəşinə tutulub.

# Naxçıvanda qoyulan təməl...

## 15 il öncə Azərbaycanın təşəbbüsü ilə yaradılan TDT müasir beynəlxalq siyasi sistemin aparıcı liderlərindəndir

Qlobal intqerasiya prosesinin ən aparıcı predmetlərindən sayılan milli kimliyə, etnik kökə bağlı funksional birliklərin inkişaf perspektivi olduqca böyükdür. Tarixə nəzər saldıqda bunun nümunələrini də görmək olar - hətta, bu kimi birliklər daxili iqtisadi gücün təmərküzləşməsi, hərbi müdafiə refleksinin artması, nəqliyyat imkanlarının genişləndirilməsi və ən əsası beynəlxalq ticari şəbəkənin mühüm bir hissəsinə çevrilmə şanslarını bir neçə dəfə artırır.

Bu mənada son bir neçə ildə beynəlxalq münasibətlər sistemində özünəməxsus yer tutan, regional müstəvidə aparıcı siyasi-iqtisadi aktor və vahid milli güc kimi tanınan Türk Dövlətləri Təşkilatı (TDT) müasir siyasi proseslərin önünə çıxmağı bacarıb. Dünya miqyasında ən önəmli geostrateji və geocoğrafi məkanlardan biri kimi tanınan və qəbul olunan Mərkəzi Asiya - Cənubi Qafqaz - Kiçik Asiya regionunun əlaqələndirilmiş siyasi-iqtisadi planları TDT-nin inkişafına xüsusi dəstək verməkdədir. Xüsusi ilə, 2020-ci il Vətən müharibəsi və 2023-cü il antiterror tədbirlərindən sonra bölgədə formalaşan yeni reallıqlar mühüm ticari çağırışları aktuallaşdırıb - bu fonda TDT-nin cəlbediciliyi daha parlaq şəkildə diqqəti cəlb edir.




## Mühüm prioritetilərə istiqamətlənən hədəflər...

Qeyd edildiyi kimi, artıq geniş funksional strukturlaşmaya malik olan TDT-nin yaranmasında, inkişafında və regional aktora çevrilməsində Azərbaycanın təşəbbüsü, səyi və qətiyyəti danılmazdır. 2021-ci ilə qədər Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası adlanan təşkilatın fəaliyyətinin əsas məqsədi türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığa yardım etməkdir. Bu təşkilat 15 il öncə - türkdilli ölkələrin dövlət başçılarının 3 oktyabr 2009-cu il tarixində Naxçıvan şəhərində keçirilən Zirvə görüşündə imzalanmış Naxçıvan Sazişinə əsasən yaradılıb. Təşkilatın yaranmasında əsas məqsəd üzv dövlətlər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, regionda və dünyada sülhün bərqərar edilməsi, xarici siyasət məsələlərinə ortaq yanaşmanın təşviq edilməsi, beynəlxalq terrorizm, separatçılıq, ekstremizm və transmilli cinayətkarlığa qarşı mübarizənin əlaqələndirilməsi, ortaq maraq kəsb edən bütün sahələrdə regional və ikitərəfli əməkdaşlığın gücləndirilməsidir. Eləcə də TDƏŞ-ə üzv dövlətlər ticarət əlaqələri və investisiyalar üçün əlverişli şəraitin yaradılması, hərtərəfli və balanslaşdırılmış iqtisadi yüksəlişə, sosial və mədəni inkişafa səy göstərilməsi, elm, texnologiyalar, təhsil və mədəniyyət sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi, kütləvi informasiya vasitələri arasında əlaqələrin, eləcə də daha geniş miqyasda informasiya mübadiləsinin təşviq edilməsi və hüquqi məlumatların mübadiləsinin, hüquq sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətində yaxın əməkdaşlığa malikdirlər.

## Milli kimliyə söykənən inteqrasiya...

Qeyd edildiyi kimi, müasir TDT Naxçıvan müqaviləsi ilə Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan arasında qurulmuş olan beynəlxalq təşkilatdır. Özbəkistan 30 aprel 2018-ci ildə ovaxtkı TDƏŞ-ə qatılma niyyətinin olduğunu açıqlamış və 14 sentyabr 2019-cu ildə də Türk Şurasına üzv olmuşdu. 2021-ci ilin noyabrın 12-də Türkiyənin İstanbul şəhərində baş tutan sammitdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının Türk Dövlətləri Təşkilatı olaraq dəyişdirilməsinə qərar verilib. Şimali Kipr Türk Cümhuriyyəti, Macarıstan və Türkmənistan isə qurumda müşahidəçi dövlət statusunda çıxış edirlər. Üzv ölkələrin dövlət rəhbərləri ildə bir dəfə rəsmi, bir dəfə də qeyri-rəsmi olaraq müxtəlif şəhərlərdə toplanır və TDT-nin çağırışları, regional predmetlər, real siyasi vəziyyət müzakirə olunur. 2009-cu ildən bəri Zirvə görüşlərinin dördü Azərbaycanda (builki qeyri-rəsmi Şuşa zirvəsi də daxil olmaqla), dördü Türkiyədə, üçü Qazaxıstanda, ikisi Qırğızıstanda, biri isə Özbəkistanda keçirilib.




Qısa zamanda özünü iqtisadi-siyasi konsepsiyası, ideoloji əsasları olan və ən əsası suveren, milli mənafeyə söykənən prinsiplərə malik təşkilat kimi sübut etməyi bacaran Türk Dövlətləri Təşkilatının əldə etdiyi uğurlar saymaqla bitməz. Bu inkişaf tendensiyasında maddi nailiyyətlərdən daha çox mənəvi nailiyyətlər göz oxşayır - vahid Türk dünyası ailəsi prinsiplərinin inkişaf etdirilməsi, qarşılıqlı maraqların qorunması üçün gücün və imkanların səfərbər olunması, fərqli cəhətlərin və ya coğrafyaların oturuşmuş siyasi birliklərinə qarşı bütün aspektlərdə müqavimətin yaradılması kimi prioritet hədəflər TDT-nin ali qurum statusunu daha da möhkəmləndirir.

## TDT-nin yeni inkişaf mərhələsi - Qarabağ Bəyannaməsi




TDT-nin sonuncu Şuşa Zirvəsi isə xüsusilə yaddaqalan oldu - 30 ildən sonra düşmən işğalından azad edilmiş tarixi mədəniyyət paytaxtımız Türk qardaşlığının növbəti rəsmi məkanı kimi yadda qaldı - 2021-ci ildə Türkiyə ilə Azərbaycan arasında rəsmi müttəfiqliklə bağlı imzalanan Şuşa Bəyannaməsi 2024-cü ildə 5 Türkdilli dövlət tərəfindən imzalanan Qarabağ Bəyannaməsi ilə daha da irəliyə yol aldı. Sənəd Türk dünyasını regionda və dünyada sülh, təhlükəsizlik, sabitlik, inkişaf və tərəqqi ideyalarına sadiq olan türk xalqlarının ortaq etnik köklər, tarix, dil, mədəniyyət, ənənələr və dəyərlərinə söykənən ailə olduğunu bir daha ortaya qoydu. Bəyannamədə Türk xalqlarının qitə miqyasında töhfələri, qlobal siyasət, iqtisadiyyat və sivilizasiyaların inkişafında tarix boyu oynadığı rol ən yüksək şəkildə dəyərləndirilir. Sənəddə strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi, TDT-nin kollektiv strategiyasının formalaşdırılması üçün siyasi, iqtisadi, nəqliyyat, müdafiə sənayesi, humanitar, təhsil və mədəniyyət sahələrində türk dövlətlərinin tam potensialından və imkanlarından istifadə edilməsinin vacibliyi qeyd edilir. Bundan başqa, Türk dövlətlərinin qlobal miqyasda potensialı nəzərə alınmaqla daha iddialı məqsədlərin qarşıya qoyulmasının, birgə səylərin artırılması və strateji əhəmiyyətli regional layihələrin həyata keçirilməsi yolu ilə dayanıqlı gələcəyin qurulması baxımından TDT-nin vəzifə və məqsədlərinin səmərəli həyata keçirilməsi üçün müvafiq mexanizm və qaydaların tətbiqinin zəruriliyi ortaya qoyulur. Paralel olaraq bəyannamədə üzv dövlətlərin milli qanunvericiliyinə uyğun olaraq müdafiə sənayesi sahəsində birgə fəaliyyətin davam etdirilməsi niyyətləri bir daha vurğulanır və bu xüsusda lazımi tədbirlərin görülməsi üçün üzv dövlətlərin aidiyyəti qurumlarına tapşırıq verilməsi əksini tapır. Eyni zamanda, sənəddə Macarıstanın, Türkmənistanın və Şimali Kipr Türk Cümhuriyyətinin müşahidəçi qismində TDT-yə dəyərli töhfələri alqışlanır, Türk Dövlətlərinin Parlament Assambleyası (TÜRKPA), Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu (TMİF) və Türk İnvestisiya Fondu (TİF) kimi türk əməkdaşlıq təşkilatları arasında davamlı əməkdaşlıq və artan sinerji təqdir edilir. Qeyd edək ki, 2024-cü il oktyabrın 24-də baş tutacaq TDT-nin 11-ci Zirvə görüşü Qırğızıstanın paytaxtı Bişkekdə keçiriləcək.

## Gələcək perspektiv: TDT-nin real imkanları və güclü potensialı...

Bəli, günümüzün reallığında dünyanı ağuşuna almış kataklizmlər istər bölgəsəl, istərsə də qlobal nəticələrə hesablanan qarşıdurmalardan "bəhrələnir". Bu mənada ölkələrin bütövlükdə qlobal proseslərə ümumi baxış bucağının forrmalaşdırılması ən vacib məqamlardandır. Eyni zamanda, yeni dövrdə effektivliyi və çevikliyi artırmaq, ümumi immun sistemini formalaşdırmaq və inkişaf etdirmək də əsas müzakirə predmetlərindən sayılır - bu mənada, fərdi yanaşmalarla yanaşı, kollektiv səylərin gücləndirilməsi TDT üçün mühüm üfiqlər vəd edir. TDT-nin qarşıdakı dövr ərzində strukturlaşma mexnizmində çevikliyin artırılması, fərqli sahələr üzrə strukturlaşmanın daha da təkmilləşdirilməsi və inkişaf etdirilməsi, yeniliklərə əl atılması istisna deyil - belə olacağı təqdirdə, yeni dövr üçün TDT özünün hərtərəfli reaksiya qabiliyyətini daha da gücləndirmək imkanlarına malik olacaq.

Paralel olaraq əməkdaşlığın hərbi müdafiə sahəsi üzrə inkişaf etdirilməsi təşkilatın imkanlarını genişləndirməklə yanaşı, inteqrasiyanı daha da sürətləndirə bilər. Hazırda bölgə dövlətlərinin əksəriyyətinin fərqli regional hərbi bloklarda təmsil olunması da buna mane olmaz - bu mənada, TDT formatında həm NATO, həm də KTMT üzvü olan dövlətlər, Azərbaycanın timsalında Qoşulmama Hərəkatına uğurla liderlik etmiş ölkə təmsil olunur. Təbii ki, bu ümumi prosesə mane olacaq deyil, əksinə, daha da təkan verəcək stimul sayılılr. Xatırlayırıqsa, təşkilatın mülki müdafiə sahəsində əməkdaşlıq perspektivləri ilə bağlı uzun müddət idi ki, aktiv müzakirələr aparılırdı və bu, qarşıdakı dövr üçün yeni inteqrasiya sahələrini də aktuallaşdırmaq imkanındadır. Təbii ki, ortada mühüm bir nümunə mövcuddur - Azərbaycan ilə Türkiyə arasında imzalanan "Şuşa Bəyannaməsi" yeni dövr üçün TDT-nin hərbi əməkdaşlıq, müdafiə sahəsində tərəfdaşlıq doktrinası rolunda çıxış edə bilər.

***Pərviz SADAYOĞLU***

# Ermənistan üzr istəməlidir!

## Təzminat ödəməkdən boyun qaçıran İrəvan beynəlxalq humanitar hüquqdan irəli gələn öhdəliklərini pozur



Ötən əsrin son onilliyində Azərbaycana qarşı təcavüzkar və işğalçı siyasət yürüdən Ermənistan öz planlarını həyata keçirmək üçün hətta insanlıq əleyhinə cinayətlərə imza atıb. 30 il öncə baş verən işğal prosesi zamanı ermənilərin törətdikləri vəhşiliklər, qətliamlar, soyqırımları ilə bağlı həqiqətlər bu gün detallı şəkildə və daha aydın ortaya çıxmaqdadır. Ərazi bütövlüyümüz və suverenliyimizin bərpasından sonra işğaldan azad edilmiş ərazilərdə tapılan kütləvi məzarlıqlar, vəhşicəsi qətlə yetirilmiş soydaşlarımızın qalıqları bir daha bu vəhşiliklərin faktoloji sübutu kimi çıxış edir. 4 ildir işğaldan azad edilmiş ərazilərdə tapılan insan qalıqları Ermənistan vandalizminin əsl şahidinə çevrilib.

Qeyd edək ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində 3 min 979 nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. Onlardan 3 min 973 nəfəri Birinci Qarabağ müharibəsində, 6 nəfəri isə Vətən müharibəsində itkin düşüb. Bugünədək işğaldan azad olunmuş ərazilərdə aşkarlanmış 18 kütləvi məzarlıqdan və görülmüş digər təxirəsalınmaz tədbirlər çərçivəsində 642 itkin şəxsə aid meyit qalığı ekshumasiya edilib. Məhkəmə molekulyar-genetik ekspertizası nəticəsində Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərdən 155 nəfərinin şəxsiyyəti eyniləşdirilib.

Bundan başqa, bu ilin sentyabrında məlum edilmiş koordinatlar üzrə Ağdərə rayonu, Sırxavənd kəndi ərazisində aparılmış işlər nəticəsində Birinci Qarabağ müharibəsində itkin düşmüş 15-ə yaxın şəxsə aid sümük qalıqları aşkarlanıb. Həmin ərazilərdə qazıntı və ekshumasiya işləri davam etdirilir. Qazıntıların və monitorinqlərin nəticəsində məlum olub ki, 2020-ci il 10 noyabrın üçtərəfli Bəyanatın imzalanmasından 2023-cü il antiterror tədbirlərinə qədərki dövrdə separatçı rejim tərəfindən bir neçə kütləvi məzarlıq məqsədyönlü şəkildə məhv edilib. Xocavənd rayonu, Qaradağlı kəndi, Xocalı rayonu, Dəhraz kəndi və Ağdərə rayonu, Sırxavənd kəndindəki kütləvi məzarlıqlar ermənilər tərəfindən törətdikləri müharibə cinayətlərinin izlərinin itirilməsi üçün məqsədyönlü şəkildə məhv edilib.

### Beynəlxalq təşkilatlara müraciətlər edilsə də...

Göründüyü kimi, Azərbaycan 30 il davam etmiş işğal prosesinin vurduğu ziyanı aradan qaldırmaqla, dağıdılmış şəhər və kəndlərimizi bərpa etməklə, törədilən ekoloji fəlakətlərin vurduğu zərəri hesablamaqla yanaşı, həm də I Qarabağ müharibəsi dövründə itkin düşmüş vətəndaşlarının taleyi ilə yaxından maraqlanır - onların məruz qaldıqları vəhşiliklərin üzə çıxarılmasını, bunu törədənlərin hüquq qarşısında cavab vermələrini təmin etməyə çalışır. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası bununla bağlı bütün gücünü səfərbər edib - həm kütləvi məzarlıqların müəyyənləşdirilməsi, oradan tapılan qalıqların eyniləşdirilməsi, paralel olaraq beynəlxalq müstəvidə törədilən cinayətlərin tanıdılması istiqamətində iş aparılır. 30 il ərzində erməni işğalına qarşı biganəlik nümayiş etdirən bəzi beynəlxalq təsisatların bu gün bütün detalları ortada olan zorakılıq, müharibə cinayəti faktlarına laqeyd münasibəti, ikili standarta söykənən yanaşması başadüşülən deyil - bu, bir daha özünü “hüquq müdafiəçisi” qismində təqdim edən həmin qurumların əsl üzünü ifşa edir.

Prezident İlham Əliyev “İtkin düşmüş şəxslər probleminin həlli: ailələrin həqiqəti bilmək hüququnun müdafiəsi” mövzusunda beynəlxalq konfransın iştirakçılarına ünvanladığı müraciətdə bildirib ki, Azərbaycan dövləti itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi üçün bütün zəruri addımları atır. Qeyd edib ki, 1993-cü ildən etibarən Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası bu humanitar missiyanı layiqincə yerinə yetirir. Vətən müharibəsindən sonra komissiyanın fəaliyyəti daha da genişləndirilib və yaxşı nəticələr əldə edilib. Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərdən 155 nəfərin şəxsiyyəti eyniləşdirilib və onlar hərbi ehtiram göstərilməklə dəfn edilib: “Bugünədək dövlət qurumlarımız, itkin düşmüş şəxslərin doğmaları, vətəndaş cəmiyyəti nümayəndələri tərəfindən müxtəlif beynəlxalq təşkilatlara dəfələrlə müraciətlər edilsə də, əfsuslar olsun ki, bu məsələdə də ikili standartlarla üzləşirik. Aidiyyəti beynəlxalq qurumlar bu müraciətlərə səssiz qalmamalı və qətiyyətli addımlar atmalıdır”.

### Ölkəmizin təşəbbüsü ilə...

Hər zaman qlobal təşəbbüsləri ilə yadda qalan Azərbaycan insan hüquqlarının qorunması məsələsində də fəallıq nümayiş etdirməkdədir. 30 ilə yaxın dövrdə bir milyonadək vətəndaşı öz doğma evində yaşamaq hüququndan məhrum olan ölkəmiz bu kimi ağır fəsadların baş verməməsi, bu kimi halların yaşanmaması üçün beynəlxalq miqyasda iş aparır - beynəlxalq sənədlərin qəbul edilməsinə nail olur, dünya ictimaiyyətinin diqqətini bu məsələyə cəlb edir. Prezident İlham Əliyev öz müraciətində bildirib ki, Azərbaycan beynəlxalq ictimaiyyətin məsuliyyətli üzvü kimi silahlı münaqişələr zamanı itkin düşmüş şəxslər məsələsinə yalnız öz problemi kimi deyil, dünyanın bir sıra ölkələrinin üzləşdiyi qlobal problem kimi yanaşır: “Ölkəmizin təşəbbüsü ilə BMT Baş Assambleyasında hər iki ildən bir itkin düşmüş şəxslər mövzusunda qətnamənin irəli sürülməsi və konsensusla qəbul olunması bu məsələyə beynəlxalq səviyyədə diqqətin artırılması istiqamətində fəaliyyətimizin tərkib hissəsidir”

Ermənistanın ölkəmizə qarşı təcavüzündən yalnız vətəndaşlarımız əziyyət çəkməyib - tarixi abidələrimiz, dini məbədlərimiz, inanc yerlərimiz, eyni zamanda fauna və floramız da Ermənistan tərəfindən məqsədli şəkildə məhv edilib. 30 il işğal altında saxlanılan ərazilərimizdə ekoloji tarazlıq pozulub, meşələrimiz qırılıb, çaylarımıza zəhərli maddələr axıdılıb. Bu isə Ermənistanın tək Azərbaycana qarşı deyil, bütün dünyaya və insanlığa qarşı cinayət törətdiyini ortaya qoyur. 30 illik işğalın Azərbaycan xalqı üçün ən ağır fəsadlarından biri də bəşəri əhəmiyyətə malik mədəni irsimizə,

### Münaqişə bitsə də...

o cümlədən dini abidələrə qəsdən vurulmuş ziyandır - bu dövrdə 67 məsciddən 65-i yerlə-yeksan edilib, qalan məscidlərə qarşı isə heyvanların saxlanılması kimi təhqiramiz əməllər törədilib. Antiterror tədbirlərindən sonrakı dövrdə isə Malıbəyli məscidinin dağıdılması və tövlə kimi istifadə edilməsi faktı aşkar edilib. Statistik rəqəmlər hər şeyi ortaay qoyur. İşğaldan azad edilmiş bölgələrdə təsbit olunan tarixi-dini abidələrdən 67-si məscid, 139-u məbəd, 192-si ziyarətgahdır - 67 məsciddən (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 65-i tamamilə, 2-i isə qismən dağıdılaraq yararsız hala salınıb.

Bütün bunların qarşılığında isə Ermənistan təzminat ödəməkdən boyun qaçırır, törətdiyi vəhşiliklərə görə Azərbaycan xalqından üzr istəmir. Məğlub ölkə törətdiyi vəhşilikləri ört-basdır etmək üçün kütləvi məzarlıqların yerini göstərməkdən imtina edir.

Vurğulamaq lazımdır ki, İrəvan özünün müharibə cinayətlərini 2020-ci il üçtərəfli bəyanatından sonra da davam etdirir - 30 il ərzində işğal altında olan ərazilərə basdırılan minalar bunu təsdiqləyir. Azərbaycan dünyada mina ilə ən çox çirkləndirilmiş ölkələr arasındadır. Bu gün, işğaldan azad edilmiş ərazilərə gedən mülki şəxslərin həyati təhlükə qarşısındadır. Minalar həm də işğaldan azad edilmiş regionlarda aparılan abadlıq-quruculuq işlərini ləngidir - Azərbaycanın apardığı bərpa prosesi tam sürətlə inkişaf edə bilmir. Prezident İlham Əliyev müraciətində onu da vurğulayıb ki, Ermənistan beynəlxalq humanitar hüquqdan irəli gələn öhdəlikləri pozaraq Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərin taleyi və kütləvi məzarlıqların dəqiq yeri haqqında məlumatları təqdim etməkdən imtina edir. Ermənistan törətdiyi bütün cinayətlərə görə üzr istəməlidir. “Münaqişə bitsə də, əfsuslar olsun ki, Ermənistanın otuzillik hərbi təcavüzünün ağır fəsadları hələ də davam edərək insanların həyatına və ətraf mühitə böyük təhlükə yaradır. Ermənistan uzun müddət işğal altında saxladığı ərazilərimizdə ekosid, urbisid, kultursid törədərək torpaqlarımızı və çaylarımızı çirkləndirmiş və zəhərləmiş, meşələrimizi məhv etmiş, şəhər və kəndlərimizi dağıtmış, habelə burada insanların yaşamaq hüququnu təhdid edən və ətraf mühitə ciddi ziyan vuran çoxsaylı minalar basdırmışdır. Eyni zamanda, xalqımızın bəşəri əhəmiyyətə malik mədəni irsi dağıdılmış, dini-mədəni abidələrimiz yerlə-yeksan edilmişdir”, - deyə dövlətimizin başçısı bildirib.

Azərbaycan Prezidenti qeyd edib ki, 30 ildən artıq müddət ərzində əsas hüquqları kobud şəkildə pozulmuş və yurd-yuvalarından qovulmuş soydaşlarımızın doğma torpaqlarına qayıtması üçün işğaldan azad olunmuş ərazilərimizdə hazırda genişmiqyaslı quruculuq işləri aparılır, işğal dövründə dağıdılmış infrastruktur və ekosistem bərpa olunur, yaşıl enerji zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda yeni şəhərlər və kəndlər inşa edilir.

*P.İSMAYILOV*

# Xalqı səfərbər edən əsas məsələ - Qərbi Azərbaycana ləyaqətli qayıdış

Zaman-zaman Azərbaycan bir sıra faciələrlə üzləşib. İmperialist güc mərkəzlərinin məkrli planları əsasında tarixi torpaqlarımızda - Qərbi Azərbaycanda Ermənistan adlı saxta dövlətin qurulması, yüz minlərlə soydaşımızın yurd yerlərindən zorla çıxarılması da bu sırada yer alır. Yüz illiklər boyunca xalqımızın tarixi torpaqlarında yaşamaq hüququ pozulub. İndi isə zaman çatıb ki, soydaşlarımızın Qərbi Azərbaycana qayıdışı təmin edilsin. Ermənistan hökuməti beynəlxalq konvensiyalara hörmətlə yanaşaraq soydaşlarımızın bu hüququnu tanımalı, Qərbi Azərbaycan icmasının ləyaqətli şəkildə qayıdışı üçün üzərinə öhdəliklər götürməli və müvafiq   təhlükəsizlik şəraitinin yaradılmasını təmin etməlidir.

### Haqqı tapdanan yüz minlərlə soydaşımızı əhatə edən Qərbi Azərbaycan icması

Qərbi Azərbaycan icması bir toplum olaraq haqqı tapdanan yüz minlərlə soydaşımızı və onların qanuni varislərini əhatə edir. Bu icmanın adı zamanında soydaşlarımızın yaşadıqları tarixi ərazilərimizin adından götürülüb. Yəni bugünkü Ermənistan Azərbaycanın Qərb bölgələrində yaradılıb və həmin ərazilərdən aborigen sakinlər olan azərbaycanlılar iradələrinin əksinə olaraq zorla çıxarılıblar, müxtəlif dönəmlərdə amansız deportasiyalara məruz qalıblar.

Bu məkrli plan bir neçə mərhələdə reallaşdırılıb. XIX əsrin əvvəllərində imzalanmış “Gülüstan” və “Türkmənçay” müqavilələrindən sonra ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi ilə azərbaycanlıların deportasiya siyasətinin əsası qoyulub. Xüsusilə də 1905-1906, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə xalqımıza qarşı mərhələli şəkildə deportasiya və soyqırımları həyata keçirilib. Burada “deportasiya” sözü yalnız soydaşlarımızın qurub-yaratdıqları evlərdən çıxarılması və köçürülməsi anlamında qəbul edilməməlidir. Tarixi ərazilərimizdən soydaşlarımızın zorla çıxarılması ilə paralel şəkildə, həm də tarixi-mədəni irsimizə qəsd edilib. Belə ki, bəhs olunan ərazilərdən azərbaycanlıların didərgin salınmaları, müxtəlif adlar altında sürgünə göndərilmələri dini-mədəni abidələrimizin dağıdılması, qədim toponimlərimizin dəyişdirilib eybəcər adlarla əvəzlənməsi, hətta qəbiristanlıqların belə təhqirlərə məruz qalması ilə müşayiət olunub. Bu, əslində etnik təmizləmə, mono-etnik dövlət qurmaq siyasəti idi. 1970-1980-ci illərdə - böyük siyasətçi Heydər Əliyevin respublikamıza birinci rəhbərliyi dövründə bu proseslərin qarşısı alınıb, xalqımız Ermənistan ərazisində növbəti deportasiya və etnik təmizləməyə məruz qalmayıb. Lakin 1987-ci ildə Heydər Əliyevin keçmiş ittifaq rəhbərliyindən uzaqlaşması ilə Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın növbəti qara günləri başlayıb. Belə ki, 1988-1991-ci illərdə azərbaycanlıların Ermənistandan deportasiyasının sonuncu mərhələsi həyata keçirilib. Ağır işgəncələrlə, çoxlu sayda insanın məqsədli şəkildə qətlə yetirilməsi ilə müşayiət olunan sonuncu deportasiya tariximizə ən amansız deportasiya kimi düşüb. Xatırladaq ki, həmin dövrdə Ermənistanda 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdı, 90-a yaxın kənddə, eləcə də böyük şəhərlərdə azərbaycanlılar əksəriyyət təşkil edirdilər. Həmin kəndlərdə və şəhərlərdə yaşayan soydaşlarımız 3 il ərzində Ermənistandan zorla çıxarılıb, soyqırımı və işgəncələrə məruz qalıblar. Verilən məlumatlara əsasən, azərbaycanlıların Ermənistan ərazisində yerləşən atababa yurdlarından sonuncu deportasiyası






zamanı 300-ə yaxın yaşayış məntəqəsindən 50 mindən artıq ailədən təxminən 300 min soydaşımız zorla qovulub, 200-dən artıq soydaşımız vəhşicəsinə qətlə yetirilib, 400 nəfərdən artıq insan yaralanıb, bir çoxlarının evləri, əmlakları yandırılıb, yandırılmayanlar isə ermənilər tərəfindən əvəzi ödənilmədən qəsb edilib, 300-dən artıq məscid, ocaq, ziyarətgah, 500-dən artıq qəbiristanlıq Yer üzündən silinib. 1988-ci ildə Ermənistandan qovulan qaçqınlara dəyən ümumi maddi ziyan 20 milyard ABŞ dollarından artıq təşkil edir ki, beynəlxalq qiymətləndirmə standartlarına görə 37 ildən sonra bu gün həmin rəqəm 1 trilyon ABŞ dollarına çatmaqdadır. Bu itkilərin üzərinə soydaşlarımıza dəyən mənəvi ziyanı, onların keçirdikləri stresləri də əlavə etsək, mənzərə barədə konkret təsəvvür yaranar.

### Bu günün hədəfi...

İkinci Qarabağ müharibəsindən əvvəlki mərhələdə müstəqil Azərbaycanın gündəliyinin əsas məsələsi ölkənin ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsi idi. 44 günlük Vətən müharibəsinin və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərinin nəticələrinə uyğun olaraq artıq bu hədəflərimizə çatmışıq. Ancaq Prezident İlham Əliyevin dəfələrlə bildirdiyi kimi, biz bu qələbələrimizi uzun müddət istismar edə bilmərik. Bəli, 44 günlük müharibədə və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində əldə olunan zəfərlər tarixi əhəmiyyət daşıyır və onların önəmi çox böyükdür. Bununla belə, cəmiyyətimiz yeni ümummilli ideyalarla silahlanmalıdır.

Yeni mərhələdə qarşımızda dayanan əsas hədəflərdən biri soydaşlarımızın Qərbi Azərbaycana ləyaqətli qayıdışının təmin edilməsinə nail olmaqdır. Hazırda bu məsələ cəmiyyətimizi səfərbər edən əsas ümummilli ideyaya çevrilib. Qeyd edək ki, soydaşlarımızın qədim yurd yerlərimizdən zorla çıxarılması kimi  tarixi ədalətsizliyə, faciələrə ilk dəfə böyük siyasətçi Heydər Əliyev hüquqi-siyasi qiymət verib. Sabiq Prezident  bununla bağlı 1997-ci il dekabrın 18-də “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında”, 1998-ci il martın 26-da “Azərbaycanlıların soyqırımı” və 2001-ci il avqustun 22-də “Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında” fərmanlar imzalayıb.

Sonrakı mərhələdə bu siyasəti eyni ardıcıllıqla Prezident İlham Əliyev davam etdirib. Soydaşlarımızın Qərbi Azərbaycana qayıdış ideyası məhz dövlətimizin başçısı tərəfindən gündəmə gətirilib. Prezident İlham Əliyev bununla bağlı dəfələrlə öz fikirlərini ifadə edib. Son 20 ildə dövlətimizin başçısının imzaladığı bir sıra sənədlər, o cümlədən Göyçə aşıq məktəbinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin yubileyinin keçirilməsi, Bakıda onun abidəsinin ucaldılması  soydaşlarımızın Qərbi Azərbaycana qaydışı üçün mənəvi zəmin formalaşdırır. Çox doğru olaraq Aşıq Ələsgərin bu günlərdə Bakıda dövlətimizin başçısının iştirakı ilə açılışı keçirilən abidəsi təkcə Qərbi Azərbaycan icmasının üzvlərini deyil, bütövlükdə xalqımızı vahid amal uğrunda birləşdirən bir rəmz kimi qəbul olunur. Abidənin kompozisiyası da elə bu ideyanı özündə ehtiva edir.

Azərbaycan Prezidenti sülhə, beynəlxalq hüquqa və tarixi ədalətə əsaslanan siyasət həyata keçirir.  Qərbi Azərbaycana Qayıdış Konsepsiyası da bu üç prinsipə uyğun reallaşdırılır. İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların fərdi və kollektiv hüquqlarının təmin olunması Qayıdış Konsepsiyasının əsas hədəfini təşkil edir. Qayıdış Konsepsiyası beynəlxalq hüquqa və təcrübəyə əsaslanır. Ermənistan hakimiyyəti respublikamızda Qərbi Azərbaycan icmasının tarixi torpaqlarımıza qayıdışı ilə bağlı müzakirələrin aparılmasını Azərbaycanın bu dövlətə qarşı ərazi iddiaları irəli sürməsi anlamında təqdim edir. Bu, kökündən yanlışdır və Ermənistanın siyasi rəhbərliyinin növbəti dəfə  məsuliyyətdən yayınmaq, beynəlxalq ictimaiyyəti aldatmaq cəhdidir.  Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktda, Qaçqınların Statusuna dair Konvensiyada və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geriyə qayıtmaq hüququ zamanında doğma yurd yerlərindən zorla qovulmuş azərbaycanlılara da şamil olunmalıdır.

### Addım-addım Qərbi Azərbaycana doğru...

Azərbaycan Prezidenti Aşıq Ələsgərin abidəsinin açılışındakı çıxışında diqqəti cəmiyyətimizdə, xalqımızda soydaşlarımızın Qərbi Azərbaycana qayıdacaqlarına böyük inam olduğuna yönəldib. Bəli, bu, əsas şərtdir. Biz məhz böyük inamımızın və əlbəttə ki, gücümüzün sayəsində 44 günlük müharibəni, 23 saatlıq lokal xarakterli antiterror tədbirlərini zəfərlərlə başa vurduq. Şübhə yoxdur ki, Qərbi Azərbaycana qayıdacağımıza olan inamımız da mütləq həyatda tədiqini tapacaq.

Artıq bu istiqamətdə praktiki müstəvidə əməli fəaliyyətlər həyata keçirilir. Qərbi Azərbaycana qayıdış ideyasının beynəlxalq gündəliyə çıxarılması mühüm hadisədir. Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərlinin verdiyi məlumata əsasən, dünyanın bir çox ölkə və qurumlarına, siyasətçilərinə onlara məktub və müraciətlər ünvanlanıb, icmanın 220-dən çox bəyanatı qəbul edilib. Bu gün Qərbi Azərbaycan İcmasının yeddi sənədi artıq BMT-nin rəsmi sənədi kimi bütün rəsmi dillərdə və beynəlxalq qurumun üzvü olan bütün dövlətlər arasında yayılıb. 200 il ərzində ermənilər tərəfindən doğma ocaqlarından qovulmuş, artıq geriyə qayıda bilmək ümidini itirməkdə olan qaçqınlarda inam yaradılıb, insanlarımız bu ideya ətrafında sürətlə kənd-kənd, rayon-rayon təşkilatlanıb, Qərbi Azərbaycanın 24 rayonu və 277 yaşayış məntəqəsi üzrə icmalar formalaşdırılıb, Azərbaycanın 41 rayonu üzrə nümayəndəliklər qərargahla təmin olunub. Bütün bunlar onu deməyə əsas verir ki, biz Qərbi Azərbaycana qayıdışa doğru addım-addım irəliləyirik.

*Mübariz ABDULLAYEV*

# “Zəfər tariximizin fatehləri”




Tanınmış ictimai-siyasi xadim, YAP Veteranlar Şurasının üzvü, “Modern İnkişaf və Ailə İctimai Birliyi”nin sədri Zərifə xanım Quliyevanın “Zəfər tariximizin fatehləri” adlı kitabı geniş oxucu kütləsinin ixtiyarına verilib. Bu kitab Z.Quliyevanın son illərdə müxtəlif qəzet və portallarda dərc olunan məqalələri, müsahibələri, şərh və rəyləri əsasında tərtib olunub.

Z.Quliyeva yeni ərsəyə gəmiş kitabında, yeri gəlmişkən, qeyd edək ki, bu, Zərifə xanımın altıncı kitabıdır, toplanmış məqalələrində Azərbaycan torpaqlarının Prezident İlham Əliyevin rəhbərliyi, müdrikliyi, uğurlu xarici siyasəti sayəsində işğaldan azad ediləcəyinə, soydaşlarımızın doğma yurd-yuvalarına qayıdacağına əminliyini ifadə edirdi. O, dönə-dönə yazır və bildiridi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqlarımız azad ediləcək, xalqımıza utanc gətirən məcburi köçkün sözü ləğv ediləcək, işğalçı Ermənistan ordusunun doğma dədə-baba yurdlarından didərgin saldığı soydaşlarımız isti ocaqlarına dönəcəklər. Çünki Prezident İlham Əliyev 2003-cü il oktyabrın 31-də keçirilmiş andiçmə mərasimində milyonların qarşısında əlini Qurani-Kərimə, Konstitusiyamıza qoyaraq and içmişdi. Bu gün də həmin sözlər hər birimizin yaddaşındadır: “Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir”.

Z.Quliyeva yazır ki, çoxlarına əfsanə, rəvayət kimi görünən bu vəd artıq reallığa çevrilib. İşğaldan azad edilmiş ərazilərimizdə sürətli genişmiqyaslı yenidənqurma, bərpa-quruculuq işlərinə başlanılıb. Dünyanın bir sıra dövlətlərinin, həmçinin beynəlxalq miqyaslı iri şirkətlərin də bu işlərdə fəallıq göstərmələri Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin dəstəklənməsindən xəbər verir. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva işğaldan azad edimiş həmin əraziləri qarış-qarış gəzir, yenidənqurma, tikinti-quraşdırma işlərində və mədəni irsimizin bərpasında tövsiyə və tapşırıqlarını verirlər. Artıq Qarabağ əvvəlkindən də cazibədar görünür. Həmin ərazilərdə 3 aeroport tikilir. Artıq ikisi istifadəyə verilib. Hətta bu aeroportlar xarici qonaqları, dövlət başçılarını qəbul edib. Prezidentin imzaladığı I “Böyük Qayıdış” proqramı da reallaşıb. Soydaşlarımız böyük coşqu ilə doğma dədə-baba yurdlarına qayıdırlar. Müxtəlif ölkələrin dövlət başçılarının Qarabağa səfərləri bu ərazilərdə öz ölkələrinin adından məktəb və digər müəssisələrin tikintisini reallaşdırmaları dünyaya bəyan edir ki, “Qarabağ Azərbaycandır!”

Zərifə xanımın son illər aparıcı mediada dərc olunmuş müxtəlif mövzulu məqalələrinin “Zəfər tariximizin fatehləri” adlı kitabında bir araya gətirməsi bugünümüz üçün vacib və zəruridir. Əvvəlcə yeni kitabına seçdiyi ada münasibət bildirmək istərdim. Həm xalqımız, həm dünya azərbaycanlıları, həm də beynəlxalq ictimaiyyətə çox yaxşı məlumdur ki, Ermənistan üzərindəki tarixi Qələbəmizin memarı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev, ona həmişə mənəvi arxadayaq olan Birinci vitse-prezident Mehriban xanım Əliyevadır. Söz yox ki, müharibədə mərd oğul və qızlarımız, əsgər və zabitlərimiz böyük qəhrəmanlıq göstərdilər, torpağımızın hər qarışı uğrunda döyüşlərdə sinələrini sipər etdilər və cəmi 44 gün ərzində düşməni diz çökdürdülər. Onlara rəhbərlik edən, tapşırıqlar verən, istiqamətləndirən isə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev idi. Bütün bunlardan sonra Azərbaycan tarixi ədalətin və öz ərazi bütövlüyünün bərpasına hərbi-siyasi yolla nail oldu. Dövlətimizin başçısı öz çıxışlarında əsgər və zabitlərimizin qəhrəmanlığını yüksək qiymətləndirərək demişdir ki, biz XXI əsrin müharibəsini aparmışıq və bu gün artıq sirr deyil ki, dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, bizim uğurlarımız, Qələbəmiz öyrənilir.

Müəllif qeyd edir ki, son 21 ildə həyata keçirilən daxili və xarici siyasət qazandığımız uğurların məntiqi nəticəsidir. Qürurverici haldır ki, hazırda bir sıra beynəlxalq əhəmiyyətli iri infrastruktur layihələrin reallaşdırılması Azərbaycanla razılaşdırılır. 10 noyabr 2020-ci il tarixlidə Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyanın imzaladıqları üçtərəfli Bəyanatdan sonra ölkəmizin beynəlxalq aləmdəki reytinqi sürətlə yüksəldi. Məlum olduğu kimi, həmin bəyanat Ermənistanın məğlubiyyətini rəsmən təsdiqlədi. Üç il sonra - 2023-cü ilin sentyabrında Silahlı Qüvvələrimizin Qarabağda apardığı lokal xarakterli antiterror tədbirləri separatçı rejimin kökünü birdəfəlik kəsdi. Bununla da Azərbaycanın ərazi bütövlüyü tam təmin edildi. Bu Qələbə Azərbaycanın tarixində silinməz iz buraxdı. Ölkəmizin ərazi bütövlüyü və suverenliyimiz dünya birliyində də qəbul edildi. Bunu Prezident İlham Əliyevə dünyanın müxtəlif ölkələrinin dövlət və hökumət başçıları tərəfindən ünvanlanmış təbrik teleqramları da təsdiqləyir. Bu gün qürurla deyə bilərik ki, Azərbaycan dünyada suveren dövlət kimi qəbul edilir.

Zərifə xanımın məqalələrinin kitabda “Azərbaycan beynəlxalq aləmdə”, “Dünyaca dəyərli Azərbaycan xanımı”, “Vədə sadiq Prezident”, “Azərbaycan tarixinin Zəfər salnaməsi - Qarabağ Azərbaycandır!” fəsillərinə bölünməsi zərurətdən irəli gəlib. Bu, o deməkdir ki, Z.Quliyevanın son illər yazdığı məqalələr, siyasi şərhlər, baş verən qlobal hadisələrə münasibəti müxtəlif mövzuları əhatə edib.

*Əliqismət Bədəlov*

# Alen Simonyana xatırlatma

## İcma: Belə bəyanatların Ermənistan üçün necə nəticələndiyi hamıya məlumdur

Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışının təmin olunması onların beynəlxalq hüquq çərçivəsində müəyyənləşmiş fundamental haqlarından biridir. Qərbi azərbaycanlıların tarixi torpaqlarımıza qayıdışının təmin edilməsi üçün bütün imkanlardan, o cümlədən beynəlxalq platformalardan istifadə olunur. Bu istiqamətdə işlər aparılır, Qərbi Azərbaycan İcması, eləcə də vətəndaş cəmiyyətinin təmsilçiləri müvafiq beynəlxalq təşkilatlara müraciətlər edirlər.




### Simonyan Qərbi azərbaycanlıların qayıdışı məsələsini təhrif edir

Ermənistanda isə məsələ “dərin narahatlıqla” izlənilir. Çünki artıq Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması kontekstində qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışı beynəlxalq platformalarda müzakirə predmetinə çevrilib. Bugünlərdə Ermənistan parlamentinin spikeri Alen Simonyanın mövzu ilə bağlı açıqlaması da bu “narahatlığın” göstəricisidir. Bununla əlaqədar Qərbi Azərbaycan İcması bəyanat verərək Ermənistan parlamentinin spikeri Alen Simonyanın öz yurdlarından qovulmuş Qərbi azərbaycanlıların tarixi torpaqlarına geri qayıtmaq hüququ barədə Azərbaycan tərəfinin bəyanatlarını təhrif etməsini və irqçi fikirlər səsləndirməsini qətiyyətlə pisləyib. Qeyd edilib ki, Azərbaycan tərəfinin çıxışında vurğulanan qayıdış hüququ beynəlxalq hüququn və fundamental insan haqlarının ayrılmaz hissəsidir və Simonyanın bu hüququ ərazi iddiası kimi yozması Ermənistanın özünün “insan hüquqları” arqumentindən istifadə edərək təcavüzkar siyasət aparması vərdişindən irəli gəlir.

“Simonyanın azərbaycanlıları “öz tarixi yurdlarını axtarmaq” adı ilə Altay dağlarına göndərmək barədə ifadəsi isə Ermənistanın rəhbər dairələrində irqçilik və etnik müstəsnalıq ideologiyasının hakim olduğunu bir daha ortaya qoyur. Xatırlatmaq yerinə düşər ki, 2020-ci il sentyabrın 27-də Ermənistan tərəfi Azərbaycana qarşı müharibəyə başlayanda bu ölkənin ordusunun baş qərargah rəisi oxşar irqçi bəyanat verərək Ermənistanın hücumunun məqsədinin azərbaycanlıları Altay dağlarına göndərmək olduğunu bildirmişdi. Bunun Ermənistan üçün necə nəticələndiyi hamıya məlumdur”,-deyə vurğulanan bəyanatda diqqətə çatdırılıb ki, Simonyanın çıxışı sülh prosesini pozmaq və Ermənistandan qovulmuş azərbaycanlıların geri dönmək hüququna xələl gətirmək cəhdidir. Qərbi Azərbaycan İcması Ermənistandan bu cür irqçi ritorikalardan çəkinməyi və Qərbi azərbaycanlıların qayıdış hüququna hörmət etməyi tələb edib.

### Monoetnik dövlətçilik

Məlumdur ki, azərbaycanlılara qarşı etnik təmizləmədə və digər cinayətlərdə iştirak etmiş şəxslər və onların əməlləri Ermənistanda dövlət səviyyəsində mükafatlandırılıb və təltif olunublar. Bu haqsızlıq Ermənistanın hakim dairələrində cəzasızlıq hissi yaradıb və onları Azərbaycanın beynəlxalq aləmdə tanınmış ərazilərinə qarşı iddialara, güc tətbiqinə, hərbi işğala, əlavə kütləvi miqyaslı etnik təmizləməyə və insanlıq əleyhinə digər cinayətlərə həvəsləndirib. Azərbaycanın öz ərazilərini işğaldan azad etməsi, müharibənin qələbə ilə başa çatması ədalətin bərpa olunması istiqamətində mühüm addım olub və iki ölkə arasında sülh imkanlarını artırıb. Digər tərəfdən, indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz evlərinə qayıda bilməməsi, bu ölkədə monoetnik dövlətçilik, etnik təmizləmə və sistematik irqi ayrı-seçkilik vəziyyətinin davam etməsi böyük ədalətsizlikdir və bu, davamlı sülhün bərqərar olunmasına böyük əngəl törədir.

Ermənistan rəhbərliyinin azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz doğma torpaqlarına geri qayıtması hüququnu təkzib etməsi, yüz minlərlə azərbaycanlının daxil olduğu Qərbi Azərbaycan İcmasının Ermənistan rəhbərliyini bu istiqamətdə dialoqa çağırışına qarşı çıxması, bu hüquqların tələbinin “ərazi iddiası” kimi təqdim edilməsi Ermənistanın “insan hüquqlarına” heç bir dəyər verməyən və “etnik təmizləmə əsasında monoetnik dövlət titulunu” qorumaq üzrə məkrli siyasətinin bir göstəricisidir. Ermənistandan azərbaycanlıların qovulması nəinki tarixi faktdır, eynilə, həm sovet Ermənistanı dövründə, həm də 1990-cı illərdən bəri minlərlə Azərbaycan toponimlərini məqsədyönlü şəkildə dəyişən, tarixi torpaqlarımızdan xalqımızın irsini məhv edən, tarixi abidələri dağıdan, bununla Azərbaycanın tarixi torpaqlarını erməniləşdirməyə cəhd göstərən Ermənistan tərəfinin Azərbaycanın Qərbi Azərbaycan İcması ifadəsindən istifadə etməsini beynəlxalq hüquq pozuntusu kimi təqdim etməsi ən azı riyakarlıqdır.

### Beynəlxalq təşkilatlar Qərbi azərbaycanlıların qayıdışını dəstəkləməlidir

Görünən odur ki, Qərbi azərbaycanlıların qayıdışı məsələsinin beynəlxalq müstəviyə çıxarılması Ermənistanı çox ciddi şəkildə narahat edir. Əgər belə olmasaydı, bu ölkənin Simonyan kimi rəsmilərində, həm də erməni cəmiyyətinin müxtəlif nümayəndələrində bu mövzu təşviş yaratmazdı. Amma onların nə deməsindən asılı olmayaraq Qərbi azərbaycanlıların tarixi torpaqlarına qayıdışı mütləq gerçəkləşməlidir. Təsadüfi deyil ki, Qərbi Azərbaycan İcması BMT Baş katibinə, Avropa İttifaqı Şurasının Prezidentinə, UNESCO-ya və digər beynəlxalq təşkilatlara müraciətlər edib. Bu müraciətlərin bir neçəsi BMT-nin rəsmi sənədi kimi yayılıb. Bütün bunlar qayıdış istiqamətində sistemli tədbirlər görüldüyünü təsdiq edir. Ermənistanın Qərbi Azərbaycan İcmasından qorxmasının əsas səbəbi də budur.

Yeri gəlmişkən, Qərbi Azərbaycan İcması tərəfindən indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə konsepsiya - Qayıdış Konsepsiyasını qəbul edilib. Konsepsiyada qayıdışla bağlı əsas məqsəd və prinsiplər müəyyən edilib. Konsepsiyada bildirilir ki, Qərbi azərbaycanlılar “Ermənistan Respublikası” adlanan ölkədən zorla qovulduqları üçün onun konstitusion çərçivəsinin və milli və hüquqi xarakterinin formalaşması prosesində iştirak imkanından məhrum ediliblər. Təəssüf ki, belə bir işğalçı, azərbaycanlıları öz yurdlarından zorla qovan dövlət BMT-nin üzvüdür. Ermənistanın BMT-nin Nizamnaməsi daxil olmaqla müvafiq beynəlxalq hüquqi sənədlərə qoşulmuş olması bu ölkənin üzərinə onun ərazisindən qovulmuş azərbaycanlıların sülh yolu ilə öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtmasına şərait yaratmaq daxil olmaqla onların hüquqlarının bərpası və qorunması sahəsində konkret öhdəliklər qoyur.

*Nardar BAYRAMLI*

# Milli maraqlarımızın qorunması üçün...

## Vətəndaş cəmiyyəti institutları nə etməlidir?

*Y.SAHİB*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti üzrə hazırlanmışdır**

Dövlət iradəsini xalqdan alır. İstənilən bir ölkənin hərtərəfli inkişafı üçün əsas məqamlardan biri həm ictimai, həm də dövlət maraqlarının xalq tərəfindən müdafiə olunmasıdır. Çünki hər bir dövlət xalqın iradəsinə söykənərək onun milli maraqları üçün çalışır və buna uyğun siyasət həyata keçirir.

Azərbaycan bu sahədə uğurlu addımlar atıb. Müxtəlif zamanlarda ictimai maraqların dövlət maraqları ilə üst-üstə düşməsinin şahidi olmuşuq. Xalqımız hər zaman əl-ələ verərək bir yumruq halında birləşib, əzmlə mübarizə aparıb. Bütün bunların sayəsində müxtəlif, bir o qədər də böyük və şanlı qələbələrə imza atmışıq.



Mövzunu “Yeni Azərbaycan”a şərh edən politoloq İlyas Hüseynovun sözlərinə görə, ictimai və dövlət maraqlarının müdafiəsi cəmiyyətin əsas meyarı olmalıdır. Ekspert bunu hər bir vətəndaşın qarşısında duran mühüm vəzifələrdən biri adlandırıb: “Yəni hər bir vətəndaş kimliyindən asılı olmayaraq, dövlətin, ictimaiyyətin maraqlarına xidmət etməyə borcludur. Vətəndaşın ilk məqsədi dövlətin və dövlətçiliyin möhkəmlənməsinə çalışmaq olmalıdır. Bu gün dünyada baş verən siyasi-iqtisadi proseslər, geosiyasi dəyişikliklər, qloballaşma kimi amillər dövlət və ictimai maraqların mahiyyəti və təmin olunması ilə bağlı ortaya real çağırışlar qoyur. Dövlət və ictimai maraqlar arasında qarşılıqlı münasibət və ya bunların hansının daha üstün olması ilə bağlı fərqli siyasi düşüncələr, yanaşmalar var”.

**“Canlı orqanizm” halında çalışmalıyıq...**

İ.Hüseynovun sözlərinə görə, dövlət o vaxt dərin və sürətli inkişafla irəliləyir ki, burada xalqın dövlət maraqları ilə ictimai maraqları üst - üstə düşür: “Dövlətin milli maraqlarına söykənən siyasəti həm diplomatik meydanda, həm də hərb meydanında öz uğurlu nəticəsini verdi. Hər bir vətəndaş Vətən müharibəsi zamanı bir əsgər idi. Yaşından, cinsindən, irqindən asılı olmayaraq, özünü azərbaycanlı sayan hər kəs bir əsgərə dönərək, Vətənin qorunması üçün əlindən gələni etdi və bu gün dünyanın ən qürurlu xalqlarından birinə çevrildik. Təbii olaraq vətəndaşın mənafeyinin müdafiə olunması, onun maraqları üçün çalışmaq dövlətin bir nömrəli vəzifələrindən biridir. Bu mənada Azərbaycan hazırda sosial dövlət kimi bu siyasəti də uğurla aparmaqdadır.

Təbii ki, problemlər də var. Lakin bu problemlərin həll edilməsi üçün dövlətlə bərabər vətəndaş cəmiyyəti, qeyri-hökumət təşkilatları, ictimai və digər icmalar, bələdiyyələr fəal şəkildə çalışmalı və dövlət maraqlarının müdafiəsi üçün vacib layihələri də icra etməlidirlər. Bu mənada siyasi birliyin vəhdətində çox böyük uğurlar qazandıq. Vətən müharibəsindən keçən bu dövr ərzində hətta siyasi partiyalar da vacib anlarda dövlətin maraqları çərçivəsində birləşdilər və öz siyasətlərini yalnız dövlətin uğuru üçün ortaya qoydular. Eyni anda qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyəti də öz töhfələrini bu inkişafa vermiş oldular”.

**Vətəndaş cəmiyyəti institutlarının üzərinə böyük iş düşür**

İ.Hüseynov vurğulayıb ki, ictimai maraqlarımızın qorunmasında QHT-lərin və vətəndaş cəmiyyəti institutlarının üzərinə də böyük iş düşür: “İctimai maraq dedikdə cəmiyyəti narahat edən aktual məsələlərin həlli, əhalinin haqq və hüquqları, o cümlədən sosial, iqtisadi hüquqlar, xüsusən isə insan hüquq və azadlıqlarının, ətraf-mühitin qorunması kimi başa düşürük. Bu zaman vətəndaş cəmiyyəti institutları aktual hesab edilən məsələlərin qorunmasında tarazlığı bərpa edə bilər”.

**İnkişaf yolunda birlikdə irəliləməliyik!**

Politoloq qeyd edib ki, bu gün hər bir Azərbaycan vətəndaşı fəxr edir ki, o, qürurlu, müzəffər, şanlı ordusu olan, iqtisadiyyatı inkişaf etmiş dövlətin vətəndaşıdır: “Bu baxımdan ölkəmizin gələcəkdə də hərtərəfli inkişafında hər birimizin üzərinə düşən vəzifələr aydındır. Hər zaman olduğu kimi biz bir xalq olaraq bu gündən sonra da bütün problemləri birlikdə həll etməli və birlikdə inkişaf yolunda düzgün irəliləməliyik.”

# Güclü siyasi zəminə əsaslanan iqtisadi hədəflər

## Azərbaycan və Səudiyyə Ərəbistanı iqtisadi əməkdaşlığın yeni gündəliyini hazırlayır

Azərbaycan və Səudiyyə Ərəbistanı arasında dostluq münasibətləri qarşılıqlı hörmət və sıx dostluq münasibətləri üzərində inkişaf etməkdədir. İki ölkə arasında münasibətlər güclü siyasi zəmin əsasında inkişaf etməkdədir və dərin qarşılıqlı inam və etimadın, iradənin olması əlaqələri bütün sahələrdə irəliyə aparmaqdadır. İki ölkənin dövlət başçılarının, hökumət üzvlərinin, iqtisadi qurumların və biznes nümayəndələrinin birgə səfərlərinin intensiv xarakter alması və aparılan faydalı müzakirələr ticarət, iqtisadiyyat, enerji, ətraf-mühit kimi sahələrdə əməkdaşlıq üçün yeni qapılar açmaqdadır.

Əvvəllər ölkələr arasında iqtisadi proqramların əsas xətti neft-qaz və enerji sahələrini əhatə edirdisə, son illərdə iqtisadi coğrafiya xeyli genişlənib və qeyri-neft sektorunun bütün istiqamətlərində əlverişli işgüzar təmaslar qurulub. Qeyd edək ki, Səudiyyə Ərəbistanının 2 şirkəti "Əsrin müqaviləsi"ndə və Bakı-Ceyhan layihəsində iştirakçıdır. Bundan başqa, Səudiyyə Ərəbistanının "Al-Gahtani Pipe Coatinq Terminal", "Middle East Fiber Cables Manufacturing" və "Middle East Sibecializet Cables CO (MESC)" şirkətləri enerji sektorlarında təmsil olunur. Ancaq son 7-8 ildə Səudiyyə şirkətlərinin sənaye, nəqliyyat, rabitə, İKT, infrastruktur, turizm, rəqəmsal innovasiyalar, əmək, məşğulluq və digər sahələrdə təmsil olunması iqtisadi panoramı zənginləşdirib.

2022-ci ildə Azərbaycanın İqtisadiyyat Nazirliyi və Səudiyyə İnkişaf Fondu arasında imzalanmış Anlaşma Memorandumu prioritet sahələr üzrə layihələrin maliyyələşdirilməsi üzrə dərin zəmin yaradıb, ərəb sərmayəçilərin sənaye və aqrar sahələrdə bir sıra layihələrə maliyyə ayrılmasını təmin edib.

### Enerjidən qeyri-neft əməkdaşlığına...

Son illərdə intensiv xarakter alan əlaqələrin dinamikasına uyğun olaraq ölkələr arasında əməkdaşlığın yeni formatı və geniş gündəliyi hazırlanıb, bu, olduqca çoxşaxəli iqtisadi münasibətlərin ruhunu əks etdirir. Hər iki tərəf energetika, infrastruktur, daşımalar və bir sıra digər sahələrdə, o cümlədən müdafiə sənayesi üzrə layihələri nəzərdən keçirərək gücləndirməyə qərar verib. Bu prosesdə 2022-ci ildə yaradılmış Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurası öncül təşəbbüslərlə çıxış edir. Qurum sahibkarların təşəbbüslərini dəstəkləmək, onlar arasında birbaşa əlaqələrin qurulmasını təşviq etmək, qarşılıqlı səfərlərin, görüşlərin və müxtəlif tədbirlərin təşkilinə kömək etmək, bizneslər arasında mübadiləni həyata keçirmək missiyası daşıyır.

İşgüzar Şuranın həmsədri Əhməd Əli Əl Daxil oktyabrın 1-də Bakıda keçirilən Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurasının 5-ci iclasında bildirib ki, əsas hədəflərdən biri investisiya imkanlarının səfərbər olunması və yeni sahələrdə sərmayə qoyuluşlarının təşviqidir. O, Səudiyyə Ərəbistanı və Azərbaycan arasında ticarət əlaqələrinin inkişafı və gücləndirilməsi, əmtəə dövriyyəsinin artırılması, energetika, investisiya, turizm, təhsil, səhiyyə, sənaye, kənd təsərrüfatı, alternativ və bərpaolunan enerji və digər sahələrdə əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını və Səudiyyə Ərəbistanı şirkətlərinin bu sahələrə investisiya yatırmaq istəklərini ifadə edib. 2023-cü ildə ticarət dövriyyəsinin dəyəri cəmi 13 milyon dollar təşkil etsə də, tərəflər bundan razı deyil. Səudiyyə Ərəbistanının Palatalar Federasiyasının İdarə Heyətinin sədri Həsən Əl-Huvaizinin vurğuladığı kimi iki ölkə arasında iqtisadi-ticarət əlaqələri son illərdə artsa da, ancaq bu, mövcud potensialı tam əks etdirmir, ticari imkanlar daha böyükdür. Ona görə də, mal mübadiləsini dəfələrlə artırmaq imkanları var və müzakirələrdə bu məsələ ilk yerlərdən birini tutur.

### Tərəflər "Şimal-Cənub" və Orta Dəhlizdə fəallığı artırmaq niyyətindədir...

Həm əmtəə dövriyyəsini artırmaq, həm də işgüzar dairələr arasında investisiya sahəsində əlaqələri genişləndirmək üçün hər iki ölkə müxtəlif stimullardan, ticari imtiyazlardan istifadə etməyi düşünür. Qarşılıqlı olaraq investisiyaların təşviqində KOB-ların rolunun artırılması, iş adamları arasında B2B (("Biznesdən biznesə") görüşlərin keçirilməsi, qarşılıqlı ticarətdə güzəşt siyasətinin təmin edilməsi, tranzit imkanlarının əlaqələndirilməsi nəzərdə tutulur. Yeri gəlmişkən, hər iki ölkə "Şimal-Cənub" və Orta Dəhlizdə iştirakda fəal yer alır və müasir nəqliyyat-kommunikasiya imkanlarını diversifikasiyaya maraq göstərir. Bu, ticarətin və tranzit dövriyyələrinin artması baxımından mühüm əhəmiyyət kəsb edir.

Eləcə də Azərbaycanın ənənəvi bazarlardan yeni bazarlara çıxış strategiyasına əsasən, əsas ixrac kanallarından biri körfəz ölkələri, o cümlədən Səudiyyə Ərəbistanın bazarlarıdır. Bu məqsədlə ixrac missiyalarının təşkili, Ər-Riyad və ya Ciddə şəhərində Azərbaycan Ticarət Evinin açılması gündəlikdə dayanır.

Səudiyyə iş adamlarının Azərbaycandakı ekoturizmə və digər turizm sənayelərinə böyük marağı xüsusi nəzərə çarpır, son illərdə ölkəmizə səyahət edən turistlərin sayında səudiyyəlilərin dinamikasında da artım da buna dəlalət edir.




### "ACWA Power"dən 5 milyard dollar həcmində "yaşıl investisiya"...

Səudiyyə Ərəbistanı "yaşıl enerji" sahəsində əməkdaşlığın perspektivlərinə də inamla yanaşır, Azərbaycanın iqlim dəyişiklikləri ilə mübarizədə yürütdüyü iradəli siyasətin və region ölkələri ilə bu istiqamətdə sıx əməkdaşlığın onun üçün də fayda verəcəyinə əmindir. Xüsusilə də Azərbaycanın COP29-a Sədr ölkə kimi ekoloji məsələlərdə daha təşəbbüskar mövqe nümayiş etdirməsi bu ölkə üçün böyük maraq doğurur. Bu baxımdan rəsmi Ər-Riyad iqlim dəyişikliyinin fəsadları ilə üzləşən ölkələrdən biri kimi ekoloji platformalarda yer almaq, irəli sürülən qlobal çağırışlardan faydalanmaq istəyir.

Alternativ enerji strategiyası üzrə yeni palanlara əsasən, ölkələrimiz arasında bərpa olunan enerji sahəsində əməkdaşlıq imkanları daha da böyüyüb, Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti ilə Azərbaycanda 240 MVT-lıq külək enerjisi parkının qurulması ilə bağlı imzalanmış müqavilə yaşıl hidrogen sahəsində dərin əməkdaşlığın əsasını qoyub. Ötən il şirkət 246 milyon dollarlıq maliyyə sazişini təsdiq edib və qarşıdakı dövrdə daha irihəcmli sərmayə layihələrinin gerçəkləşməsi nəzərdə tutulur. "Acwa Power" şirkətinin regional direktoru Abid Malik bildirib ki, investisiya əsasən Azərbaycanın bərpaolunan enerji sahəsinə 5 milyard dollara yaxın sərmayə yatırılacaq.

### Azad ərazilərdə sərmayə planları...

İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən yenidənqurma və bərpa prosesləri, "Böyük Qayıdış" proqramını diqqətlə izləyən və bu bölgənin reinteqrasiya proseslərində xarici iş adamlarına yaradılan əlverişli iş imkanlarını qiymətləndirən səudiyyəli iş adamları investisiya qoyuluşunda iştirak məsələsini istisna etmirlər. Qeyd edək ki, 2022-ci ilin dekabrında Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri Xalid bin Əbdüləziz Əl-Falihin rəhbərlik etdiyi böyük bir nümayəndə heyəti ölkəmizdə səfəri çərçivəsində azad edilmiş ərazilərə baş çəkərək bölgənin resursları və investisiya imkanları ilə yaxından tanış olub. Həmin səfər zamanı Səudiyyə Ərəbistanından olan özəl şirkətlərin Qarabağın bərpa prosesində iştirakının nəzərdən keçirildiyi vurğulanıb, Səudiyyə İnkişaf Fondu və Səudiyyə İnvestisiya Fondu tərəfindən maliyyə vəsaiti ayrılacağı bildirilib.

Azad ərazilərdəki külək, günəş və "yaşıl hidrogen" layihələrinə investisiyaların cəlb edilməsi ilə bağlı Azərbaycan hökumətinin təşviqedici siyasətini dəstəkləyən səudiyyəli biznes icması bölgənin "yaşıl sərmayələr"ində də aparıcı rol oynayacaqlarını bildirib. Belə ki, Yaşıl Enerji Zonası elan edilmiş bu bölgədə bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsalı, elektrik nəqliyyat vasitələrindən istifadə, günəş panellərinin qurulması, istilik, soyutma və isti su təchizatında bərpa olunan enerji texnologiyalarının tətbiqi, "ağıllı enerji" idarəetmə kimi modellərdə "Acwa Power"in iştirakı nəzərdə tutulur.

Beləliklə, Səudiyyə Ərəbistanı və Azərbaycan arasında təşkil edilkən işgüzar görüşlər, forumlar yeni iqtisadi prioritetləri müəyyənləşdirmək, birgə sərmayə planların dəyərləndirmək və iqtisadi-ticari mübadiləni genişləndirmək baxımından mühüm əhəmiyyət kəsb edir.

**ELBRUS CƏFƏRLİ**

# Rəqabət və xarici bazarlara çıxış üçün...

## Rəqəmsallaşma Proqramı KOB-ların fəaliyyətində yeni mərhələ açacaq

Rəqəmsal transformasiya müasir biznesin formalaşmasını şərtləndirən aparıcı amildir. Elektron ticarət, rəqəmsal ödənişlər, süni intellekt, böyük verilənlər, blokçeyn və digər alətlər ənənəvi biznesin rəqəmsal biznesə keçidində mühüm rol oynayır. Rəqəmsal transformasiya kiçik və orta biznesin (KOB) innovasiyaları sürətləndirmək və bununla da rəqabət qabiliyyətini gücləndirmək üçün əsas vasitə kimi ön plana çıxır. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda kiçik və orta biznesin (KOB) inkişafının yeni və daha səmərəli stimullarla təşviqi, rəqəmsal cəmiyyətə tam inteqrasiya üçün yeni strateji hədəflər müəyyən edilib. Bu məqsədlə yeni hazırlanan kiçik və orta sahibkarlığın rəqəmsallaşması proqramı bu istiqamətdə nəzərdə tutulan prioritetləri özündə əks etdirir.

Proqramın başlıca məqsədi rəqəmsallaşmanı təşviq etməklə kiçik və orta biznesləri dəstəkləmək, onların effektivliyini, rəqabət qabiliyyətini və bazar əhatəsini genişləndirməkdir. KOBİA-nın sədri Orxan Məmmədov Bakıda İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA) və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBIA) birgə iştirakı ilə KOB-ların Rəqəmsallaşması Proqramının açılış mərasimində bildirib ki, rəqəmsallaşma ilə bağlı hədəflər KOB-lar üçün bir çox imkanlar açır. Belə ki, onların yeni bazarlara çıxışı və qlobal dəyər zəncirinə inteqrasiyası, öz innovativ fəaliyyətlərini yüksəltməsi və məhsuldarlığın artırması baxımından yeni proqram mühüm əhəmiyyət kəsb edir. Bu çərçivəyə əsasən, KOB-ların rəqəmsal alətlər, strategiyalar və qabaqcıl təcrübələr haqqında maarifləndirməsi məqsədilə seminarlar və təlim proqramları təşkil olunacaq, ən innovativ təşəbbüslərə cəlb edilməklə bacarıqların artırılması dəstəklənəcək.

### Rəqəmsallaşmadan kənarda qalan KOB-lar uğursuzluğa düçar olur

Hazırda rəqəmsal transfrormasiya qlobal biznes üçün ən başlıca şərtlərdən biridir. Dünya İqtisadi Forumunun (DİF) hesablamalarına əsasən, dünyada fəaliyyətə başlamış şirkətlərin 70 faizindən çoxu rəqəmsallaşma olmadan fəaliyyətinin ilk ilindəcə uğursuzluğa düçar olur. Ona görə də, hazırda dünyada bütün KOB subyektləri rəqəmsal arxitekturaya inteqrasiya olunaraq biznes planlaşdırması, mal və xidmətlərin istehsalında rəqəmsal xidmətlərə və alətlərə geniş yer verir. DİF-in digər ehtimallarına görə, qarşıdakı 10 illik dövrdə qlobal iqtisadiyyatda yaradılacaq əlavə dəyərin təqribən 70 faizi rəqəmsal platformalara əsaslanacaq.

Bu baxımdan Azərbaycanda da KOB-ların rəqəmsallaşması iqtisadi gündəmin əsas meyarlarından biridir. 18 dövlət qurumunun təmsil olunduğu "Rəqəmsal iqtisadiyyatın inkişafı strategiyası"nda da KOB-ların bu sistemin ayrılmaz tərkib hissəsi kimi potensialları müəyyənləşib. Strategiyaya əsasən 2030-cu ilədək ölkədə 650-dək şirkətin rəqəmsallaşması nəzərdə tutulub ki, onların böyük bir qismi kiçik və orta biznes icmasıdır.

### "digiMATE" və "DIGI30" - KOB üçün məsuliyyət və etimad alətləri...

KOB-ların Rəqəmsallaşdırılması Proqramının rəhbəri Elturan Əhmədbəyli bildirib ki, yeni strategiya sənəd 4 mərhələ üzrə biznesi dəstəkləyir. Bu, bazar araşdırması, dünya təcrübəsinin öyrənilməsi və mənimsənilməsi, KOB-ların imkanlarının təhlili, təchizatçılarla görüşləri kimi fazaları nəzərdə tutur.

KOB-ların Rəqəmsallaşma Proqramında mühüm yer tutan layihələrdən biri "digiMATE"dir. 2024-cü ilin avqust ayından istifadəyə verilən bu platforma

"digiMATE" kiçik və orta bizneslərin rəqəmsallaşma bələdçisidir və rəqəmsallaşma səyahəti boyunca onları müşayiət edir. Bu, korporativ rəqəmsal transformasiya sayəsində biznes subyektlərinin qiymətləndirmə sistemi müəyyənləşir və onların rəqəmsal yetkinlik indeksi (RYİ) təyin edilir. Yəni, "digiMATE" bizneslərin rəqəmsallaşma səviyyələrini ölçmələri üçün qiymətləndirmə aləti rolunu oynayır. Ona görə də, çevik və nümunəvi bizneslərlə, tənbəl KOB-lar bu platforma çərçivəsində müəyyən olunacaq ki, biznes icması öz üzərində işləməklə, daha doğrusu rəqəmsal xidmətlərə daha sıx inteqrasiya olunmaqla öz reputasiyalarını gücləndirmək imkanı qazanacaq.

Digər bir rəqəmsal alət "DIGI30" layihəsidir. Bu, rəqəmsal platformada kiçik və orta bizneslər rəqəmsallaşma dəstəyindən yararlanaraq innovativ həllərə çıxışa kömək edir. Bu alət rəqəmsal marketinq rolunu oynamaqla biznesin rəqəmsal təşəbbüskarlığını, bacarıq və səriştələrini üzə çıxarır.

Hər iki layihə kiçik və orta biznesin rəqəmsal texnologiyalardan faydalanmaqla rəqabət qabiliyyətini artırmaq və xarici bazarlarda imkanlarını genişləndirmək imkanı yaratmaqla, həm də KOB-ların kibertəhlükəsizlik, bulud həlləri üzrə tədbirləri təmin etməyə də imkanlar yaradır.





### "Yaşıl dəhliz" kiçik və orta biznes üçün asan keçidi təmin etməkdədir

KOB-lar üçün rəqəmsal infrastrukturlardan biri də "Bakı KOB evi"ndə yaradılan "KOB gömrük anbarı"dır. Elektron sistemə əsaslanan bu model KOB-ların xaricdən ölkəyə gətirdiyi malların operativ şəkildə rəsmiləşdirilməsi, gömrük prosedurlarının asanlaşdırılması və idxal proseslərinin sürətləndirilməsini təmin etməyi nəzərdə tutur. Bu platforma KOB-larla gömrük orqanı arasında məmnuniyyətin və gömrük xidmətlərinə əlçatanlığın təmin edilməsi, şəffaflıq və aşkarlığın artırılması istiqamətində körpü rolunu oynayır. Bu sistem çərçivəsində "KOB Evi - Gömrük və Logistika adaları" təsis olunub. "Bakı KOB evi"nə məxsus Beynəlxalq Ticarət, İnkişaf və Logistika Zonasının işi də "Gömrük anbarı" ilə əlaqələndiriləcək. Bu isə idxal-ixrac əməliyyatları üzrə sahibkarların vahid mərkəzdən lazımi xidmətləri almasına, bununla da vaxt və əməliyyat xərclərinə qənaət etməsinə imkan verəcək.

### 2030-cu ilədək...

2030-cu ilədək ölkədə 650-dək şirkətin rəqəmsallaşması nəzərdə tutulub. Azərbaycanda fəaliyyətdə olan biznes subyektlərinin mütləq əksəriyyətinin, təxminən 98 faizinin KOB-lar təşkil etdiyini nəzərə alsaq, rəqəmsallaşmada əsas ağırlıq yükü KOB-ların üzərinə düşür.

Beləliklə, rəqəmsallaşmanın geniş tətbiqi KOB-lara daha çevik qərarlar vermək, yeni məhsul və xidmətlər təqdim etmək, şəffaflığı təmin etmək, müştəri məmnuniyyətini artırmaq, əməliyyat xərclərini azaltmaq, insan kapitalını daha səmərəli idarə etmək və minimum resurslarla maksimum effektivlik imkanı yaradacaq. Rəqəmsallaşma Proqramı KOB-ların fəaliyyətini keyfiyyətcə yeni mərhələyə yüksəldəcək və rəqabət qabiliyyətini artırmaqla onların xarici bazarlarda Azərbaycanın milli sahibkarlıq simasının daha da zənginləşməsinə töhfə verəcək.

**E.CƏFƏRLİ**

*N.BAYRAMLI*

# Yelisey sarayı geri çəkildi...

## Kanak xalqının azadlıq mübarizəsi öz nəticələrini verməkdədir

Məlumdur ki, bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz Fransa tərəfindən törədilib. Fransanın fəal surətdə məşğul olduğu qul ticarəti insanlığın ən utancverici səhifələrindən biridir. Milyonlarla afrikalı bu ölkənin qul siyasətinin qurbanı olub. Müstəmləkəçi Qərb ölkələri demokratiyanı və insan hüquqlarının qorunmasını özlərinin "fundamental prinsipləri" kimi bəyan etsələr də, Afrikada, Yaxın Şərqdə, Latın Amerikasında neokolonializmi davam etdirməklə insan hüquq və azadlıqlarına, ümumiyyətlə, məhəl qoymurlar. Neokolonializm siyasətində Fransa ən pis nümunə ortaya qoyur. Hazırda 13 dənizaşırı ərazini müstəmləkəsi kimi idarə edən, həmçinin dünyanın müxtəlif qitələrində yerləşən keçmiş müstəmləkələrinin daxili işlərinə qarışan Fransa beynəlxalq təşkilatların və müstəqillik uğrunda mübarizə aparan xalqların uzun illərdir tələblərinə baxmayaraq, neokolonializm siyasətini davam etdirir.

### Gərginliyə səbəb olan "islahatçı qanun"

Fransaya qarşı etirazların artdığı keçmiş müstəmləkələrdən biri də Yeni Kaledoniyadır. Bu bölgədə Fransa müstəmləkəçiliyinə qarşı etiraz aksiyaları artıq davamlı xarakter alıb və hər gün daha da güclənir. Yeni Kaledoniyada bu ilin əvvəllərindən başlanmış etiraz aksiyalarının əsas səbəblərindən biri kənardan gətirilən insanlara yerli Kanak xalqının ziyanına olaraq səsvermə hüququnun verilməsidir. Belə bir şəraitdə, rəsmi Paris bölgəyə ordu və jandarm qüvvələri göndərmişdi. Məlumdur ki, Fransa hakimiyyəti adada etnik tərkibi köklü surətdə dəyişməyə çalışır. Hazırda Yeni Kaledoniyanın əhalisi təxminən 300 min nəfərdir. Onun 40 faizi, yaxud 112 mini kanaklardır. 1998-ci ildə imzalanmış müqavilələrə əsasən, Fransa ərazinin siyasi muxtariyyətini genişləndirməyə və yerli seçkilərdə yalnız o vaxt Yeni Kaledoniyada yaşayanlara səsvermə hüququ verməyə razılaşdı. Ancaq 1998-ci ildən bəri 40 minə yaxın Fransa vətəndaşı Yeni Kaledoniyaya köçüb. 2018-ci və 2020-ci illərdə keçirilmiş birinci və ikinci referendumda Parislə əlaqələrin saxlanmasının tərəfdarları cüzi səs çoxluğu əldə edib, üçüncü dəfə isə müstəqilliyi dəstəkləyən partiyalar hakimiyyətin bu referendumu təxirə salmaq istəmədiyi üçün səsverməni boykot etmək qərarına gəldilər. Fransa tələm-tələsik, koronavirus pandemiyası dövründə üçüncü referendumu keçirdi.

Etirazlara səbəb olan qanuna əsasən, 10 il Yeni Kaledoniyada yaşayan Fransa sakinlərinə səsvermə hüququ verilməlidir. Bu isə adanın yerli əhalisinin, kanakların narazılığına səbəb olub. Onlar bundan sonra siyasi təsir imkanlarının azalacağından narahatdırlar. Ekspertlər hesab edirlər ki, yeni qanun qəbul olunduqdan sonra seçicilərin sayı 14,5 faiz Fransadan gətirilənlərin hesabına artacaq. Bu perspektiv arxipelaqın müstəqilliyini böyük əksəriyyəti ilə dəstəkləyən kanakları narahat edir. Onlar hesab edirlər ki, "islahat" onların seçki və referendumda çəkisini azalda, xalqını marginallaşdıra, bununla da onları adanın taleyini təyin etmək imkanından məhrum edə bilər. Adada yaranmış etnik vəziyyətə əsasən, Fransa orada keçirəcəyi mümkün istənilən ümumxalq səsverməsi kampaniyasında qalib gələcək.

Bu səbəblərdən də, may ayında adada eriaz aksiyaları daha da gücləndi, Paris bu aksiyaları zor gücünə yatırdı. Yeni Kaledoniyada baş verən hadisələrdə Fransa ordusu 10-a yaxın etirazçını qətlə yetirdi, təxminən 200 nəfər isə yaralandi. Həbs olunanların da sayı çoxdur. Fransa prezidenti Makronun adaya səfəri də yerli əhalinin mövqeyini dəyişdirə bilmədi.

Qeyd edək ki, Azərbaycan Fransanın müxtəlif xalqlara qarşı repressiv siyasətinə etiraz səsini ucaldır. Eyni

### Makron adaya səfər etsə də...

zamanda, müstəmləkəçiliyə qarşı aparılan mübarizəyə siyasi və mənəvi dəstək verilir. Bakı Təşəbbüs Qrupunun yaradılması da bu məqsədə xidmət edir. Yarandığı vaxtdan Bakı Təşəbbüs Qrupu Fransanın müstəmləkəçilik siyasətindən əziyyət çəkən xalqların hüquqlarının müdafiəsi üçün 16 beynəlxalq konfrans keçirib.






### Bakı Təşəbbüs Qrupu Kanak xalqını təbrik edib

Artıq ölkəmizin dəstəyi ilə Kanak xalqının azadlıq mübarizəsi öz müsbət nəticələrini verməkdədir. Bakı Təşəbbüs Qrupu (BTQ) Kanak xalqını azadlıq mübarizəsində verdiyi böyük qurbanlar hesabına Makron iqtidarını geri çəkilməyə məcbur etməsi münasibətilə təbrik edib. BTQ-nin bununla bağlı yaydığı bəyanatda Fransa tərəfinin Kanak xalqının bir sıra tələblərini yerinə yetirməyi öhdəsinə götürməsi Parisin müstəmləkəçilik siyasətinə qarşı aparılan mübarizənin uğuru kimi qiymətləndirilib: "Məlum olduğu kimi, Yeni Kaledoniyada Fransa müstəmləkəçiliyi, habelə Kanak xalqının hüquq və azadlıqlarının Makron iqtidarı tərəfindən kobud pozulmasına etiraz əlaməti olaraq bir neçə aydı dinc aksiyalar keçirilir. Bu aksiyalar nəticəsindən 10-dan artıq mülki şəxs Fransa təhlükəsizlik qüvvələri tərəfindən qətlə yetirilib, yüzlərlə adam həbs edilib. Eyni zamanda Kanak xalqının azadlıq cəbhəsi olan FLNKS-in əsas fiqurları, xüsusilə hərəkatın lideri Kristian Teyn qanunsuz həbs edilərək Lyon şəhərinə köçürülüb. Bakı Təşəbbüs Qrupu ilk gündən bu siyasi məhbus ailələrinə dəstək verib və dəstək verməkdə davam edəcək".

Bəyanatda deyildiyi kimi, dinc etiraz aksiyalarını yerli xalqlara atəş açmaqla susdura bilməyəcəyini nəhayət dərk edən Makron iqtidarı Kanak xalqı qarşısında geri çəkilmək məcburiyyətində qalıb. 1998-ci ildə Fransa hökuməti ilə FLNKS arasında imzalanmış Numea sazişindən bəri ilk dəfə Fransa tərəfi Kanak xalqının bir sıra tələblərini yerinə yetirməyi öhdəsinə götürüb. Yeni Kaledoniyanın ardınca digər müstəmləkələrdə etiraz dalğasının baş qaldırması və sürətlə genişlənməsi Fransa hökumətini məcbur etdi ki, aşağıdakı güzəştləri etsin. Belə ki, bundan sonra koloniyaların məsələləri ilə Dənizaşırı ərazilər üzrə nazir deyil, Baş nazir özü birbaşa məşğul olacaq. Fransa Milli Assambleyası və Senatının sədrləri dialoqun qurulması məqsədi ilə tezliklə Yeni Kaledoniyaya səfər edəcəklər. Baş nazir və dənizaşırı ərazilər naziri yanında formallaşdırılmış nazirliklərarası nümayəndə heyəti Yeni Kaledoniya ilə danışıqlar aparacaq (əvvələr Kanak xalqı ilə dialoqdan imtina edirdilər). Bundan əlavə, dövlət başçısı ilə razılıq əsasında Yeni Kaledoniyada 2024-cü ilin sonunda keçirilməsi nəzərdə tutulan

### Seçki təxirə salındı, qanun isə Fransa parlamentinə təqdim olunmayacaq

əyalət seçkiləri 2025-ci ilin sonuna qədər təxirə salınır. Fransa Parlamentinin palataları bununla bağlı qərar qəbul edəcəklər.

Eyni zamanda, Yeni Kaledoniyada seçki kütləsinin sayının qanunsuz artırılması ilə bağlı 2024-cü ilin may ayında qəbul edilmiş konstitusiya qanunu Fransa Konqresinə səsverməyə təqdim edilməyəcək. Fransanın dövlət başçısı bunu noyabr ayında rəsmən bəyan edəcək. Bu, o deməkdir ki, Fransa hökuməti bundan sonra Yeni Kaledoniyaya məqsədli şəkildə kənardan köçürtdüyü miqrantlara səsvermə hüququ verə bilməyəcək. Bakı Təşəbbüs Qrupu hesab edir ki, Kanak xalqının azadlıq mübarizəsi yerli xalqın əsas tələbi olan müstəqilliyin qazanılması ilə yekunlaşacaq.

---

# Paşinyan "qapı arxasında" qaldı...

## Erməni baş nazirin Ağ Ev arzuları puç oldu



Ermənistanın son aylarda xüsusilə qabartdığı "Qərbə inteqrasiya", "ABŞ ilə yaxınlaşma" kimi "xülyaları" daşa dəyməkdədir. 5 aprel razılaşması ilə Ermənistanı özünün "arxa bağçası"na çevirən ABŞ İrəvanı hətta görüntü xatirinə belə olsa da, özünün "tərəfdaşı" kimi təqdim etmədi - BMT Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində ABŞ-da "qonaq" olan Ermənistanın baş naziri Nikol Paşinyan əməllibaşlı "diqqətdən kənarda" qalıb. Tədbirdən öncə Ermənistan KİV-i Paşinyanın ABŞ prezidenti Co Baydenlə görüşəcəyi haqda "pozitiv proqnozlar" versə də, onların bu arzusu yerinə yetmədi. Cəmisi bir aydan sonra öz postunu təhvil verəcək və eks-prezidentə çevriləcək Bayden Paşinyanı qəbul etmədi.

Əslində Ermənistan ictimaiyyəti bu görüşü həm də Baydenin Paşinyanı "yeni müttəfiqi" qismində özünün xələfinə təqdimat mərasimi kimi xarakterizə edirdi. Düşünülürdü ki, məhz bu yolla ABŞ özünün Cənubi Qafqaza istiqamətlənən "yeni siyasi planları"nı nümayiş etdirəcək. Amma bu, baş vermədi. Səbəbləri isə az deyil...

**Erməni KİV-i "ümidli" idi...**

İlk növbədə Paşinyanın timsalında Ermənistan kimi bir dövləti özünün "bərabərhüquqlu" müttəfiqi və ya tərəfdaşı kimi təqdim etmək ABŞ üçün xarakterik ola bilməz - qlobal ambisiyalara malik Vaşinqton adətən Ermənistan kimi yerləşdiyi regionun autsayderi sayılan dövlətələrə belə jestlər etmir. Tam əksinə, onlara "yerini göstərmək" üçün əlinə düşən bu kimi fürsətlərdən yararlanır. Eyni zamanda, Paşinyanın Baydenlə görüşəcəyi ilə bağlı xəbərlərin yayılması, ardından isə bu görüşün baş tutmaması həm də Ağ Evin xüsusi piar strategiyasının bir hissəsidir. Ağ Ev bu yolla Ermənistanın onun adından istifadə etmə imkanlarını məhdudlaşdırır.

Bu mənada Paşinyanın qapı arxasında qoyulması da Ağ Evin Cənubi Qafqaza münasibətdə İrəvanı müttəfiqi hesab etməməsinin növbəti ifadəsi kimi başa düşülür. Vaşinqton prosesləri soyyuqqanlı şəkildə izləyir - regionda formalaşan yeni siyasi-iqtisadi, ticari reallıqlara Ermənistan üzərindən təsir imkanlarını araşdırır. Paralel olaraq isə bölgənin ən zəif dövlətinin Vaşinqtonun kölgəsinə sığınaraq "xüsusi statsus" qazanmasına "mane olur".

**Bayden "cəzalandırır"...**

Məsələyə başqa bir rakursdan yanaşaq - Bayden bu "jesti" ilə həm də Ermənistana xəbərdarlıq edir. "Başını torpağa salmış dəvəquşu" misalı Ermənistanın etdiklərindən kimsənin xəbər tutmadığını fikirləşməsi yanlışdır - ən azından, İrəvanın ABŞ-ın iradəsinin əksinə olaraq Rusiya ilə iqtisadi əlaqələrini daha da irəliyə aparması, KTMT-dən və Aİİ-dən çıxmaması, paralel olaraq Rusiyaya qarşı tətbiq edilən sanksiyaların Ermənistan üzərindən "deşilməsi" Ağ evə məlumdur. Bir müddət öncə beynəlxalq mətbuat bu mövzuya geniş şəkildə yer ayırmışdı - belə olan halda, Baydenin Paşinyanı saymamasını Ermənistana xəbərdarlıq, hətta "sarı kart" kimi anlamaq mümkündür. 2024-cü ilin sonuna qədər Ermənistan və Rusiya arasında ticarət dövriyyəsinin həcminin 14 milyard dollardan 16 milyard dollara çatdırılması "perspektivi" təbii olaraq Vaşinqton üçün düşündürücüdür. Necə olur ki, siyasi münasibətləri kəskin olan bu iki dövlətin ticari əlaqələri günü-gündən genişlənir? Demək ki, "tarixi xəyanətkar" yenidən öz ampluasındadır - Ermənistan bir müddət öncə Rusiyaya arxa çevirdiyi kimi, ABŞ-ın da başının üstündən iş görməyə niyyətlənib. Təbii ki, İrəvan bunun ağrısını çəkəcək. Özünün maraqlarını heç vaxt və heç kimə dəyişməyən Vaşinqtonun Paşinyanı bağışlayacağına inam yoxdur - Baydenin soyuq münasibəti də bunu təsdiqləyir...

**Ermənistan Kamala Harrisin planlarına daxil deyil...**

Co Baydenin bir aydan sonra "eks" statusu qazanacağını düşünsək, prezidentliyə iki namizədin də "gələcək müttəfiq" ilə görüşməməsi maraq doğurur. Xüsusilə, ermənilərə xüsusi simpatiyası olan "demokratların" nümayəndəsi Kamala Harrisin bu məqamdan istifadə etməməsi düşündürücüdür - adətən ABŞ-dakı erməni lobbisinin "etimadını" qazanmaq üçün qeyri-real vədlər verən demokrat namizədlərin növbətisinin Paşinyanla görüşməməsi özü də bəzi suallara cavabdır. Paralel olaraq Harrisin Ermənistanın Müstəqillik Günü münasibətilə Paşinyana deyil, Amerika Erməni Milli Komitəsinə (ANCA) məktub göndərməsi də diqqəti cəlb edir. Beləliklə, Baydenin ardından Harris də Ermənistanın onun planlarında xüsusi prioritet daşımadığını ortaya qoyur. Dünyada "amplituda"nın bu qədər kəskin dəyişdiyi bir dövrdə Ermənistanın kəsb edəcəyi önəm isə olduqca azdır. Baş verənlərin fonunda İrəvan hansısa bir strateji əhəmiyyət daşımır - nə Avropada, nə də Şərqdə baş verənlərin fonunda Ermənistanın xüsusi münasibət görmə səbəbləri yoxdur. Bu mənada ABŞ özünün yaxın gələcək üçün hesablanan perspektivdə Ermənistanın "əsas məqamlardan" olmadığını əyani şəkildə ortaya qoyur...

**Tramp üçün də əhəmiyyət daşımır...**

Eyni fikirləri digər cəbhənin nümayəndəsi - Donald Tramp haqqında da demək olar. Respublikaçı namizədin əsas diqqət verdiyi məqam Mərkəzi Avropa "cəbhəsidir". Ukrayna ilə bağlı məsələni özünün prioriteti elan edən Tramp üçün Orta Dəhlizin fəaliyyəti də olduqca əsaslı məqamlardandır. Amma bu planda Ermənistan hansısa bir önəmli rol oynamır - tam əksinə, Tramp öz çıxışlarında əməkdaşlığın, ticari tərəfdaşlığın inkişaf etdirilməsi məsələlərini açıq şəkildə qoyur. Bu isə onu deməyə əsas verir ki, Respublikaçı namizədin prioritetləri arasında nə Paşinyan, nə də Ermənistan yer almır...

*S.İSMAYILZADƏ*

---

*N.BAYRAMLI*

# Daxili böhran dərinləşir...

## Vətəndaşlar Makron-Barnye hökumətinə qarşı etiraz edirlər

Fransada daxili siyasi gərginlik artmaqdadır. Prezident Emmanuel Makronun yarıtmaz siyasəti ölkəni dərin böhrana sürükləyib. Xüsusilə, son parlament seçkiləri siyasi böhranı daha da stimullaşdırdı. Çünki seçkilərdən sonra parlamentdə təmsilçilik qazanan üç əsas blok bir-birinə güzəştə getmək niyyətində deyil. Milli Assambleyanı buraxaraq, ölkədə qeyri-sabitliyi yaradan elə E.Makron özüdür.

Bu səbəblərdəndir ki, dövlət başçısının əhali arasında heç bir nüfuzu qalmayıb. Xatırladaq ki, vaxtilə vətəndaşların şilləsinə tuş gələn Fransa prezidenti daha sonra yumurta atəşinə də tutulmuşdu. Növbəti dəfə isə o, əhali tərəfindən fitə basılıb. Hadisə Parisdə keçirilən Yay Paralimpiya Oyunlarının bağlanış mərasimində baş vermişdi.

### Fransanın 188 şəhər və qəsəbəsində etiraz aksiyaları keçirilib

Fransada Solçu Yeni Xalq Cəbhəsi (NFP) ittifaqının ümumi seçkilərdə son qələbəsinə rəğmən prezident Emmanuel Makronun sağçı siyasətçi Mişel Barnyeni baş nazir təyin etmək qərarı da ölkədə kütləvi etirazlara səbəb olmuşdu. On minlərlə vətəndaş sentyabrın 7-dən etibarən küçələrə axışmışdılar. Həmin vaxt Makronun əleyhinə nümayişlərdə paytaxt Parisdə 50 min, bütün ölkə boyu isə 300 minə yaxın insan iştirak etmişdi. Renn, Nant, Nitsa, Marsel və Strasburq kimi böyük şəhərlər də daxil olmaqla, 150-dən artıq şəhər və qəsəbədə etiraz aksiyaları keçirilmişdi.

Qeyd edək ki, Fransada etiraz aksiyaları yenidən başlayıb. Bu ölkədə Fransada CGT, "Solidaires", FSU həmkarlar ittifaqlarının, eləcə də gənclər təşkilatlarının üzvləri tərəfindən "Makron-Barnye hökuməti"nə qarşı", pensiya islahatının ləğvi və maaşların artırılması tələbi ilə tətil və nümayiş keçirilib. Ölkənin 188 şəhər və qəsəbəsində fransızlar küçələrə çıxıblar. Aksiya iştirakçıları hazırkı nümayişin uzun müddət davam edəcək etirazların başlanğıcı olduğunu bildiriblər. Onlar, ilk növbədə, M.Barnye hökumətinin legitimliyini tanımadıqlarını vurğulayıblar. Prezident E.Makronun istefasını tələb edərək, onu xalqın səsinə, seçkilərin nəticələrinə hörmət göstərməyə çağırıblar. Qəzəblərinin soyumayacağını və sona qədər mübarizə aparacaqlarını bəyan edən nümayişçilər etirazların davamlı olacağını diqqətə çatdırıblar. Eyni zamanda, Makronun idarəçiliyindən narazılıqlar səsləndirilib. Bütün ölkədə keçirilən nümayişlərdə təhsil, səhiyyə sahələrində dözülməz vəziyyətin yarandığı, yoxsulluğun baş alıb getdiyi qeyd edilib. Fransızlar sosial və ekoloji ədalət tələblərini bir daha səsləndiriblər. Nəqliyyat sektoru da daxil olmaqla, bir çox sahələrdə uzunmüddətli tətillərin başlandığı bildirilib.

### Makronun istefası tələb olunur

Parisdə "Denfert-Rochereau" meydanına toplaşan nümayişçilər "Bastille" meydanına doğru irəliləyiblər. Onlar xüsusilə iyul seçkilərində uduzan siyasi partiyaların hökumətə gətirilməsindən narazılıqlarını ifadə ediblər. Etirazçılar Makron-Barnye siyasətinə yox deyərək, əllərində "Makron istefa!" plakatları ilə "Bastille" meydanına doğru gediblər.



Ölkədə milli səviyyədə keçirilən etiraz nümayişləri zamanı Milli Assambleyada isə Baş nazir M.Barnye yeni hökumətin siyasətini açıqlayıb. Lakin Makronun yarıtmaz siyasəti Fransada daxili böhranı dərinləşdirib. Etirazçılar Makronu parlament seçkilərində qalib gəlmiş NFP-nin namizədi Lyusi Kastetin əvəzinə məğlub blokdan olan Barnyeni baş nazir təyin etməklə seçkilərin nəticələrinə məhəl qoymamaqda ittiham edirlər. Bu səbəbdən də Fransada Makrona qarşı etiraz aksiyaları səngimir. Xatırladaq ki, Fransanın solçu "Əyilməz Fransa" partiyası prezident Emmanuel Makronun hakimiyyətdən uzaqlaşdırılması prosedurunu da başladıb. Bu addım ölkə konstitusiyasının 68-ci maddəsinə uyğun olaraq atılıb. Həmin maddə prezidentin səlahiyyətlərini pozduğu təqdirdə onun vəzifədən kənarlaşdırılması imkanını nəzərdə tutur.

### Gələn il yeni seçkilərin keçirilməsi istisna deyil

Davam edən nümayişlər Makronun idarəçiliyi ilə bağlı artan ictimai narazılığı əks etdirir. Sağçı "Milli birlik" partiyasının Fransa Milli Assambleyasındakı fraksiyasının lideri Marin Le Pen bildirib ki, Fransanı gələn il yeni növbədənkənar parlament seçkiləri gözləyir: "Aydındır ki, vəziyyət belə davam edə bilməz. Bu, Makrondan başqa hamıya aydındır. Görünür ki, bir il sonra bizi qanunverici orqana yeni növbədənkənar seçkilər gözləyir. Əvvəl-axır Fransaya mütləq çoxluq lazımdır və biz buna yalnız yeni proporsional seçki qanununun köməyi ilə nail ola bilərik". "Görək, seçicilərin, məsələn, Avropa ilə bağlı istəkləri də nəzərə alınacaqmı? Barnye mühüm rol oynadığı Avropa quruculuğuna sadiq olmasına baxmayaraq, seçkilərin nəticələrini unutmamalıdır. Çünki fransızların əksəriyyəti indiki Avropa nizamına qarşıdır",-deyə siyasətçi qeyd edib.

Beləliklə, proseslər deməyə əsas verir ki, Makronun siyasi taleyi yaxşı görünmür. Onun kütləvi etirazlar fonunda hakimiyyətdən uzaqlaşdırılacağı istisna deyil.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Şagirdlərin dərs yükü azaldılmalıdır

## Bir gündə 6-7 fənnin tədrisi düzgündürmü?

*Yeganə BAYRAMOVA*

Ötən ayın 16-dan etibarən yeni tədris ili başlayıb. Hər zaman olduğu kimi, bu il də müəllimləri, həmçinin valideyn və şagirdləri narahat edən məqamlar var. Bunlardan biri dərs yükü ilə bağlıdır. Valideynlər övladlarının həddindən artıq yükləndiklərini söyləyirlər. Bu barədə həm sosial şəbəkələrdə, həm də ictimaiyyət arasında mütəmadi müzakirələr aparılır.

Belə ki, şagirdlərə həftədə bir neçə gün 6-7 fənn, digər günlərdə isə 3-4 fənn tədris edilir. Əlbəttə, dərs cədvəllərindəki proqramın nə üçün belə tərtib edildiyi suallar yaradır. Bundan başqa, bir fənnin mütəmadi olaraq hər gün keçirilməsi də narahatlıq yaradan məqamlardan biridir. Çünki hansısa fənnin 2-3 gün ard-arda keçirilməsi təbii olaraq şagirdin həmin fənni yaxşı mənimsəməməsinə səbəb olur.

**Tədris proqramları o qədər ağır olur ki...**

Mövzu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşən təhsil üzrə ekspert Kamran Əsədovun sözlərinə görə, bu gün şagirdlərin dərs yükü həddindən artıq ağırdır. Ekspert qeyd edib ki, təhsil proqramı və evə verilən tapşırığlar o qədər ağır olur ki, uşaq bütün günü kitabla gəzsə də, yenə də həmin fənn üzrə tapşırıqları çatdıra bilmir: "Aşağı siniflərin dərslikləri bir qədər rahatdır və məzmunu anlamaq olur. Yuxarı sinflərin dərsliklərinin məzmunu ümumiyyətlə anlaşılmır.

Buna görə də şagirdlər proqramın hamısını qavramaqda çətinlik çəkirlər. Nə qədər çalışsalar da, verilən ev tapşırıqlarını sərbəst işləyə bilmir və buna görə repetitorların xidmətindən istifadə edirlər. Repetitora pul verə bilməyən şagird isə tapşırığı həll edə bilmədiyi üçün psixoloji sarsıntı keçirir. Dərsliklərdə olan qarmaqarışıq ifadələr, anlaşılmayan cümlələr və çətin tapşırıqlar şagirdlərin kabusuna çevrilib".

**Bu gərginliyə məktəblilərin iradəsi dözmür...**

E.Əfəndi bir gündə 6-7 fənnin tədris olunmasının şagirdlərin növbəti mərhələlərdə təhsil nailiyyətlərinə müsbət təsir etmədiyini bildirib: "Əksinə, şagirdlərin həddindən artıq ev tapşırığı ilə yüklənməsi onları təhsildən, məktəbdən soyudur. Bu gərginliyə məktəblilərin orqanizmi, əsəbi, iradəsi də dözmür".

**Dərs yükü normaları**

Ekspert pedaqoji işçilərin dərs yükü normaları ilə bağlı məsələyə də toxunub: "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normaları var. Belə ki, məktəbəqədər tərbiyə müəssisələrində tərbiyəçilərin həftəlik iş vaxtı 30 saatdır. Bütün tipdən olan ümumtəhsil məktəblərində, gimnaziya və liseylərdə, peşə məktəbləri və peşə liseylərində, idman və incəsənət məktəblərində müəllimlərin, məktəbdənkənar təhsil müəssisələrində dərnək rəhbərlərinin həftəlik 1 stavka dərs yükü - 12 saat müəyyən edilib. Ümumtəhsil məktəblərində, internatlarda, lisey, gimnaziyalar və peşə təhsili məktəblərində tərbiyəçi-müəllimlərin həftəlik iş vaxtı - 24 saatdır. Ali və orta ixtisas təhsili müəssisələrində isə professor-müəllim heyətinin və konsertmeysterlərin bir stavka üzrə illik dərs yükü - 500 saatdan az olmamaqla müəyyən edilib".

**Çıxış yolu nədir?**

Ekspert dərs cədvəllərinin nisbətən yüngülləşdirilməsi ilə bağlı çıxış yollarını qeyd edib. Onun sözlərinə görə, dərsliklərdə problemlər və şagirdlərin proqramında çətinliklər mövcuddur: "Şagirdlərə hər gün ev tapşırığının verilməsi mütləq deyil. Hesab edirəm ki, dərsliklər təkmilləşdirilməlidir. Nəticə etibarı ilə digər ölkələrin təhsil modellərinə nəzər salsaq görərik ki, şagirdlərin daha çox valideynlə ünsiyyət qurmasına şərait yaradılıb. Dərslər isə şagirdlərin həddindən çox yorulub tükənməsinə səbəb olmur. Ona görə də informasiya texnologiyalarının inkişaf etdiyi bir dövrdə çalışmalıyıq ki, ondan istifadə edərək öyrədək. Məsələn, hazırda birinci siniflərin kifayət qədər fənn sayı var. Acınacaqlı vəziyyət ondan ibarətdir ki, uşaqlara əlifba öyrətməzdən öncə xarici dildə söz bilməyi tapşırırlar. Bir gündə 6-7 dərs yükünü azaltmaq istəyiriksə, bəzi fənlər sintez olunmalıdır. Məsələn, "Həyat bilgisi" dərsliyində olan məlumatlar "Azərbaycan dili" dərsliyinə inteqrasiya olunaraq həmin hekayələrin içərisində verilə bilər. Həmçinin, şagirdlər kitabları auditoriyaya daşımaq məcburiyyətində qalmamalıdır".

# Alkoqola yox!

## Dünya Alkoqolizmlə Mübarizə Günüdür

*Yeganə BAYRAMOVA*

Spirtli içkilərin sağlamlığa mənfi təsirlərini saymaqla bitməz. Alkoqol asılılığı müasir cəmiyyətin ən böyük problemlərindən biridir. İndi hətta gənclər və yeniyetmələr arasında da alkoqola olan meyil ciddi narahatlıq doğurur. Bu içkilərə aludəlik dünyada vaxtından əvvəl ölüm və əlilliyin mühüm risk faktorlarından biridir. Belə ki, alkoqollu içkilər beyin hüceyrələrinə və neyronlara təsir edərək, onları fəaliyyətdən saxlayır. Bir çox hallarda beyindəki nazik damarların partlamasına, qanın laxtalanmasına səbəb olur.

Spirtli içkilər həmçinin qanın normal qaydada dövr etməsinin qarşısını aldığına görə infarktla nəticələnir. Bəzi hallarda isə beyində əzələlərin yığılmasına, şişlərə və qan təzyiqinin yaranmasına səbəb olur. Bu da bədən üzvlərinin iflic vəziyyətinə düşməsi ilə nəticələnir.

### İnsanları fiziki və mənəvi uçuruma sürükləyən içki...

**Dünya əhalisinin 45 faizi...**

Hər zaman spirtli içkilərin sağlamlığa mənfi təsirləri barədə danışılır. Müxtəlif maarifləndirici məlumatlar verilir. Baxmayaraq ki, alkoqol qəbulu bir çox mədəniyyətlərdə və cəmiyyətlərdə ənənədir, lakin dünya əhalisinin 45%-i, qadınların isə 55%-i heç zaman alkoqol qəbul etməyib.

Yeri gəlmişkən, hər il oktyabrın 3-də müxtəlif ölkələrdə Dünya Alkoqolizmlə Mübarizə Günü kimi qeyd olunur. XIX əsrdə ABŞ-da həyatını sərxoşluqla mübarizəyə həsr edən ictimai xadim Con Finçin xatirəsinə həsr edilib. Həmin gün dövlət



qurumları və ictimai təşkilatlar alkoqolizm problemlərinə, onun doğurduğu xəstəliklərə həsr edilmiş mühazirə, seminar və sərgilər təşkil edir, tədbirlərdə çıxış edən həkim-narkoloq, psixoloq və psixiatrlar alkoqolun sağlamlığa vurduğu zərər və ondan yaranan asılılıq barədə məlumat verirlər.

**Spirtli içkilərin insan nəslinə təsiri...**

Spirtli içkilər insanın spermatozoidlərinə və onları istehsal edən hüceyrələrə xoşagəlməz təsirlər qoyur. Almaniyalı həkimləri sübut ediblər ki, spirtli içkilərin acınacaqlı təsirləri, hətta onlardan istifadə etməyən üç nəslə qədər davam edir. Spirtli içkilərə qurşanan şəxslərin nəsli azalaraq tamamilə kəsilə bilir. Amerikalı alim doktor Nalin bildirib ki, bir sağlam kişidən orta hesabla on bir sağlam övlad əmələ gələ bilər. Halbuki, spirtli içkilərə qurşanan şəxsdən 1-3 nəfər belə sağlam övlad dünyaya gəlmir. Dünyaya gələn övladlar da müxtəlif ruhi və fiziki xəstəliklərə, o cümlədən infarkt, əsəbilik, dəlilik, əql qüvvəsinin normal inkişaf etməməsi, qan azlığı və sair kimi xəstəliklərə düçar olur, daim ruhi və fiziki çatışmazlıqlardan əziyyət çəkirlər.

**Alkoqol asılılığı olanlar içməyənlərə nisbətən 15 il az yaşayır**

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə alkoqoldan suiistifadə dünyada ölüm səbəbləri arasında 3-cü yeri tutur (birinci yerdə ürək-damar xəstəlikləri, ikinci yerdə isə onkoloji xəstəliklərdir). Alkoqoliklər içməyənlərə nisbətən 15 il az yaşayır. Onların yalnız 25 faizi 50 illik sərhəddi keçir.

**Xoş əhval-ruhiyyə yaratmaq...**

ÜST-ün məlumatına görə, alkoqoldan istifadəyə vadar edən müxtəlif səbəblər - yorğunluğu çıxarmaq, depressiyadan xilas olmaq, özündə xoş əhval-ruhiyyə yaratmaq, ovqatı yüksəltmək və sair göstərilir. Lakin alkoqolun mütəmadi istifadəsi orqanizmin ondan asılılığına səbəb olur. İstifadəçilər arasında keyfiyyətsiz spirt və alkoqolun yüksək miqdarda qəbulu nəticəsində baş verən ölüm hadisələri də az deyil.

*İdman*

# Azərbaycan idmançılarının yeni reytinq cədvəli açıqlanıb



Gənclər və İdman Nazirliyi (GİN) Olimpiya idman növləri üzrə milli komandaların idmançılarının 2024-cü il oktyabr ayına olan reytinq cədvəlini açıqlayıb.

GİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, siyahıya 590 xalla "Paris-2024" Yay Olimpiya Oyunlarında qızıl medal qazanmış cüdoçu Hidayət Heydərov başçılıq edir. Olimpiadada 5-ci yeri tutaraq tarixi nəticəyə imza atmış bədii gimnastika üzrə qrup hərəkətləri komandası 500 xalla ikinci, Olimpiya Oyunlarının digər qızıl medalçısı Zelim Kotsoyev (cüdo) 470 xalla üçüncü yerdə qərarlaşıb.

Növbəti pillələrdə müvafiq olaraq Nikita Simonov (kişi idman gimnastikası, 340 xal), Elcan Hacıyev (cüdo, 320), Anna Skidan (çəkic atma, 315 xal), Balabəy Ağayev (cüdo, 310 xal), Yaşar Nəcəfov (cüdo, 300 xal), Leyla Əliyeva (cüdo, 290 xal) və Zelim Tçkayev (cüdo, 280 xal) yer alıblar.

Qeyd edək ki, reytinq xallarının hesablanması Gənclər və İdman Nazirliyinin müəyyən etdiyi qaydalara əsasən aparılır. Növlər üzrə beynəlxalq yarışlar öz reytinqinə əsasən 5 kateqoriyaya bölünür və həmin yarışlarda tutulan yerlərə uyğun olaraq xallar hesablanır.

# İdmançımız Əbu-Dabidə keçirilən turnirdə qələbə qazanıb

Azərbaycan idmançısı Məhəmmədəli Osmanlı Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilən MMA turniri "UAE warriors 54" turnirində qələbə qazanıb.

"Report" xəbər verir ki, bu barədə Gənclər və İdman Nazirliyinin mətbuat xidməti məlumat yayıb.



20 yaşlı döyüşçü çeçenistanlı rəqibi Şamil Borayevi məğlub edib.

# Azərbaycan millisinin məşqçisi: Qadın güləşçilərdən böyük uğurlar gözləyirik

Güləş üzrə U-20 və U-17 yaş qrupunda ilin əsas yarışlarına yekun vurulub.

Azərbaycan Güləş Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, qızlardan ibarət komanda 2024-cü ildə bu yaş qrupları üzrə keçirilən Avropa və dünya çempionatlarında 9 medal (1 qızıl, 1 gümüş, 7 bürünc) qazanıb. Ötən il keçirilmiş analoji yarışlarda bu növdə cəmi 5 (2 gümüş, 3 bürünc) medal əldə olunmuşdu.

Yığmanın böyük məşqçisi Rövşən Umudov komandanın 2024-cü ildəki çıxışını şərh edib: "Bilirsiniz ki, Azərbaycanda qadın güləşində məhdud sayda idmançı var. Ona görə də Avropa və dünya çempionatlarında tam heyətlə təmsil olunmuruq. Maksimum 5-6 güləşçi ilə bu yarışlarda iştirak etdiyimizi nəzərə alsaq, çıxışımızı uğurlu saymaq olar. Fikrimcə, tam heyətlə iştirak etsəydik, komanda hesabında da nailiyyət qazana bilərdik. Bu il Ruzanna Məmmədova U-20 Avropa çempionu oldu. Fatimə Bayramova yeniyetmələr (U-17) arasında qitə birinciliyində gümüş medal qazandı. Nəzrin Əhmədli, Günay Qurbanova və Zəhra Kərimzadə U-17 yaş qrupunda




həm Avropa, həm də dünya çempionatında bürünc medal əldə etdi. Nərgiz Səmədova isə gənclər arasında dünya üçüncüsü oldu".

Təcrübəli mütəxəssis güləşin bu növündə kütləviliyin yaradılması üçün təkliflərini də bildirib: "Azərbaycanda qadın güləşinə axın olmadığını hamımız yaxşı bilirik. Bildiyiniz kimi, yığma komandada həm yeniyetmə, həm gənclər, həm də böyüklər daxil olmaqla maksimum 20-25 idmançı ilə məşq edirik. Hər həftə idman verilişlərində videoçarxlar göstərilməli, dünya və Avropa çempionatlarında medallar almış idmançıların çıxışlarından istifadə olunmaqla qadın güləşini təbliğ etmək lazımdır".

R.Umudov güləşçilərin gələcək perspektivindən də danışıb: "Ruzanna Məmmədovanın 18 yaşı yenicə tamam olub. Bir idmançı bütün yarışları eyni qaydada keçirə bilmir. Bir şeyi də qeyd edim ki, Avropa və dünya çempionatı arasında çox böyük fərq var. Dünya çempionu olmaq və ya bu yarışda medal qazanmaq çox çətindir. Amma bu güləşçinin böyük potensialı var və onun gələcəkdə böyük uğurlar qazanacağına inanırıq. O ki qaldı, yeniyetmələrə, təbii ki, onlardan da çox böyük uğurlar gözləyirik. Əlbəttə, bunun üçün çox işləmək və ciddi hazırlaşmaq lazımdır. Düzgün, lazım olan qaydada məşqlərimizi davam etdirsək, bu gün adlarını çəkdiyimiz idmançılar gələcəyin olimpiyaçıları ola bilərlər".


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4790**
**Sifariş: 2254**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Nardar BAYRAMLI